
ƏLLAMƏ SEYİD
MƏHƏMMƏD HÜSEYN TƏBATƏBAİ
ŞƏFAƏT NƏDİR?

**Əllamə Seyid Məhəmməd Hüseyn Təbatəbai**

# ŞƏFAƏT NƏDİR?

## ƏLLAMƏ TƏBATƏBAİNİN HƏYATI

Əllamə Seyyid Məhəmməd Hüseyn Təbatəbai miladi 1902-ci ildə, Təbrizdə elm və irfan ocağı olan bir sülalədə dünyaya gəlmişdi. On dördüncü babasından atasına kimi bütün babaları Təbrizin məşhur alim və elm sahiblərindən olmuşlar.

Əllamə ilk təhsilini doğma şəhəri Təbrizdə almışdır. Təhsilinin ilkin mərhələsini bitirdikdən sonra o dövrün İslami elmlər mərkəzi olan Nəcəfi-Əşrəfə yollanıb, orada İslam elmlərinin müxtəlif sahələrində 10 il təhsil almışdır. Fiqh və üsuli-fiqh elmlərini mərhum Naini və İsfahani (Kompani) kimi məşhur ustadlardan dərs almışdır. Fəlsəfəni Ağa Əli Müdərrisin tələbələrindən olan Seyyid Hüseyn Badkubi, riyaziyyatı Seyyid Əbülqasim Xansari, əxlaq isə hikmət və irfanda böyük məqam sahibi olan Hacı Mirzə Əli Qazidən öyrənmişdir.

1925-ci ildə maddi çətinliklərlə əlaqədar olaraq, doğma yeri olan Təbrizə geri dönmək məcburiyyətində qalmışdır.

Əllamə Təbatəbai sadəcə fiqh sahəsində deyil, hətta sərf, nəhv, ərəb ədəbiyyatı, fiqh və üsuli-fiqh, riyaziyyat, fəlsəfə, kəlam, irfan və təfsir sahələrində də ixtisas sahibi olacaq dərəcədə dərin bir təhsil görmüşdür.

Əllamə Təbatəbai bəzi siyasi hadisələrin nəticəsi olaraq ortaya çıxan və acınacaqlı izlər qoyan II Dünya Müharibəsindən sonra, doğum yeri olan Təbrizi tərk edib, İslami elmlər mərkəzi olan Qum şəhərinə gedərək, təfsir və fəlsəfə sahəsində dərs məclisləri təşkil etmişdi. Tehrana tez-tez etdiyi səfərlər nəticəsində fəlsəfə və İslami elmlər sahəsində çalışan şəxslərlə əlaqə yaratmış, din və fəlsəfə mövzusunda çəkinmədən bəhs aparıb, doğru yoldan çıxan incə məsələləri

əql və məntiq yoluylasubut edərək, aydınlaşmasına vəsilə olmuşdur. Son iyirmi il ərzində isə, həm də qərbdə təhsil görmış ziyalılar arasında daha üstün bir elmi səviyədə durmuşdur.

Əllamə Təbatəbai illərcə hər bayar mövsümündə professor Henri Corbin və digər alim və elm sahibləri ilə birgə toplantılar təşkil edirdi. Bu toplantılarda din və fəlsəfə haqqında çox əhəmiyyətli mövzuların bəhs olunur, dövrün mənəvi vəziyyətinin reallıqlarının sorağında olan şəxslərin qarşısına çıxan məsələlər araşdırılıb cavablandırılırdı. Bu toplantılar çox əyəmiyyətli və müsbət nəticələr əldə olunlmuşdur. Bu toplantılardan çox əhəmiyyətli və müsbət nəticələr əldə olunmuşdur. Bu kimi yüksək dərəcəli toplantılar, dövrümüzdə İslam-xristian əqalərində rast qəlinməyən bir hadisədir.

Əllamə Təbatəbainin böyük xidmət və himmətiylə Qum şəhərinin elm hövzələrində əqli elmlər, ayrıca Qurani-Kərimin təfsiri tədrisi olundu. Əllamənin fəlsəfənin təməli sayılan «Səfa» və «Əsfar» kimi kitabları tədris etməsilə, tədricən bu elm sahəsi başqa mədrəsələrdə də tədris olundu. Onun uca şəxsiyyəti, gözəl sifətlərə sahib olması və tələbələrinə qarşı müsbət və ölçülü davranışı, gün keçdikcə fəlsəfəyə yaxınlıq duyan qabiliyyətli tələbələrin ustadın dərsinə üz tutması səbəb oldu. Beləcə, son illərdə fəlsəfə dərsinə yüzlərcə tələbə qatıldı. İyirmi il ərzində Əllamənin rəhbərliyi sayəsində fəlsəfə yiyələnən çoxlu sayda tələbə yetişdi. Bunların bir çoxu, ümumiyyətlə fəlsəfə ustadlarındandır. Onun tələbə yetişdirmək və fəlsəfi kitabları nəşr etməsindən əlavə göstərdiyi xidmətdən daha əhəmiyyətlisi, tələbələrinin əxlaqi təlim-tərbiyə və nəfsin saflaşmasına diqqət göstərməsi idi. Əllamə, həqiqətdə elm və əxlaqı bərabər öyrənib yaymaq istəyən şəxsləri tərbiyə etmək üçün yeni bir məktəb təsis edərək, çox dəyərli insanlar

yetişdirib cəmiyyətin ixtiyarına vermiş, ardıcıl olaraq elm və əxlaqın birlikdə inkişaf etdirilməsinin lazımlı olduğunu vurğulamışdır.

Əllamə Təbatəbai sadəcə fəlsəfə, təfsir, üsul və füruddindəki hədisləri anlamaq mövzularda deyil, tövhid və qəlbi ilhamlar yönündə də Allahın böyük bir nişanəsiydi.

Müxtəlif elmləri özündə cəmləməklə yanaşı, elm və əməldə də birliyə sahib idi. Yəni, vücudunun bütün üzvləri haqqa təslim olmuş bir insan idi. Yəni vücudunun bütün üzvləri haqqa təslim olmuş bir insan idi.

Şikəstə və nəstəliq xətilə çox bir gözəl yazardı.

Cəbr, həndəsə və geometriya ustadı olmaqla bərabər, təqvim hazırlaya biləcək dərəcədə astronomiya və say elmini, əbcəd hesabını, eləcə də gizli elmlərdən rəml və cəfri çox yaxşı bilirdi. Lakin rəml və cəfrə əməl etdiyi görülmımışdır.

Qurani-Kərimə qarşı məxsusi bir xuşu və etiramı var idi. Ayələri əzbərdən oxuyur, ayələrin yer və nömrələrini müxtəlif surələrdə göstərər və bir-birinə uyğun olan ayələri çıxarardı. Mərhumun Quran barədə etdiyi izah toplantıları heyranedicidir. Həzrət Məhəmməd (s) və Xanım Fatimə (s.ə.) və on iki Əhli-beyt imamlarına (ə) qarşı xüsusi bir məhəbbəti var idi. Onlardan birinin adı cəkilən zaman üzündəki ifadəsi ədəb və təvazö halı alırdı. O, uca şəxsiyyətlər haqqında soruşulan suallara qarşı dərin izah verərdi. Məşhəddə olduğu zaman hər gecə İmam Rzanın (ə) türbəsini ziyarət edər, münacatda olardı.

Əllamə Təbatəbai, 15 noyabr 1981-ci ildə vəfat etmişdir. Allah onu öz vəliləriylə həşr etsin, ona rizvanında yer versin!

## ƏLLAMƏNİN SOY ŞƏCƏRƏSİ

Əllamə Təbatəbai atası tərəfdən İmam Həsən (ə), anası tərəfdən isə İmam Hüseynin (ə) nəslindəndir. Bu səbəbdən, yazdığı kitabların bəzisində adı Seyyid Məhəmməd Hüseyn Həsəni Hüseyni Təbatəbai kimi göstərilir. Əllamənin soy şəcərəsi:

1. Seyyid Məhəmməd Hüseyn
2. Seyyid Məhəmməd
3. Seyyid Məhəmməd Hüseyn
4. Seyyid Əli Əsğər
5. Seyyid Məhəmməd Təqi Qazi
6. Mirzə Məhəmməd Qazi
7. Mirzə Məhəmməd Əli Qazi
8. Mirzə Sədrəddin Məhəmməd
9. Mirzə Yusif Naqib əl-Əşrəf
10. Mirzə Sədrəddin Məhəmməd
11. Məcduddin
12. Seyyid İsmail
13. Əmir Əli Əkbər
14. Əmir Əbdülvəhhab
15. Əmir Əbdülğəffar
16. Seyyid İmadəddin Əmirul-Hac
17. Fəxrəddin Həsən
18. Kəmaləddin Məhəmməd
19. Seyyid Həsən
20. Şəhabəddin Əli
21. İmadəddin Əli
22. Seyyid Əhməd
23. Seyyid İmad

24. Əbül-Həsən Əli
25. Əbül-Həsən Məhəmməd
26. Əbu Abdullah Əhməd
27. Məhəmməd Əsgər
28. Əbu Abdullah Əhməd
29. İbrahim Təbatəbai
30. İsmail Dibac
31. İbrahim Qəmr
32. Həsənül-Müsənna
33. İmam Həsən (ə)
34. İmam Əli ibn Əbutalib (ə)

# QURANDA ŞƏFAƏT

Dünyəvi hökumət və səltənətlərin bütün quruluşları, müxtəlif növləri və əlaqəli sahələri, eləcə də qanunverici və icraedici orqanların fəaliyyət və potensial gücü, həyatın təməldən olan ehtiyaclarına söykənir. Məqsədi də, zamana və məkana bağlı səbəblərin imkan verdiyi ölçüdə öz ehtiyaclarını ödəməkdir. Bununla əlaqəli olaraq, bəzi hallarda hökuməti davamlı edən ümumi sistemin xaricində bir dəyər digər dəyərlə, bir mənfəət digər mənfəətlə və bir hökm də digər hökmlə əvəz oluna bilər.

Hüquqşünaslara görə günah və cinayət, cəzanı labüd edər. Lakin bəzən olur ki, əvvəldə qeyd etdiyimiz dəyişkən hal, cəza hüququna da aid olur. Çünki hakim müəyyən məqsədlərə görə cəzanı dəyişdirə bilər. Məsələn, tərəfindən cəzalandırılması gözlənilən məhkum hakimə israrlı yalvarışları nəticəsində, hakim özünə acındıra, ya rüşvət verməklə qərarına təsir göstərib səhv bir hökm verməsinə yol aça, ya da günahkar özü ilə hakim və ya hökmü icra edən şəxsə başqa bir şəxsin vasitəçiliyi ilə təsir edə və yaxud da başqa bir şəkildə hakimin rəyini dəyişdirə bilər.

Deyək ki, günahkarlar bir miqdar fidyə[1] vermək istəyir. Məhkumu cəzalandırmaq istəyən hakimsə, veriləcək fidyəyə cəzalandırmaqdan daha çox ehtiyac duyur. Belə bir vəziyyətdə də, hakimin qərarı dəyişə bilər. Və ya məhkum olunan şəxs qohumlarından yardım istəyə, onlar da onu müxtəlif vasitələrlə cəzadan qurtara bilərlər.

---

[1] Məhkumların azad olunmasına görə verilən müəyyən pul məbləği və ya qiymətli əşya.

Ümumiyyətlə, bir çox hallarda hakimin rəyi dəyişdirilə bilər. Bu proses tarix boyu davam etmiş və tədricən adət halını almışdır.

Qədim bütpərəst millətlər və azğın inanclı insanlar, axirət həyatının da eyni dünya həyatı kimi olduğunu düşünürdülər. Dünyada mövcud olan maddə qaynaqlı səbəb və nəticə qanunun axirətdə də qüvvədə olacağını hesab edirdilər. Bu səbəbdən, etdikləri günahları günah hesabında olmasın və ya bir qrup ehtiyacları ödənilsin deyə, tanrılarına bir çox qurbanlar və hədiyyələr təqdim edirlər. Bununla onlar tanrılarından şəfaət umur və ya günahlarının fidyəsini verdiklərini düşünürdülər. Bəzən bütlərə bir canlı və ya silah təqdim edərək onlardan yardım diləyir, hətta torpağa basdırılan zaman ölülərlə birlikdə bəzi ziynət əşyaları və silah qoyur, bununla da cəsədin axirətdə onlardan istifadə edəcəyinə inanırdılar. Bəzi vaxtlarda ölü ilə birlikdə ona yoldaşlıq edəcək bir cariyəni *(kəniz)* və ona yardım edəcək bir igidi (cangüdən) də dəfn edirdilər. Bu gün muzeylərdə nümayiş etdirilən, torpaqdan çıxarılmış tarixi əsərlər, deyilənlərin təsdiqidir. Müxtəlif dilləri və fərqli rəngləri olan bir çox İslam millətləri arasında da bu cür inancların qalıqları müşahidə olunur. İrsiyyət yolu ilə gələn bu inanclar, zaman ərzində bizi dəyişiklərə uğramışdır. Qurani-Kərimdə bu cür əsassız inancların yalana söykəndiyi, mənasız və puç olduğu qeyd olunmuşdur. Uca Allah belə buyurur:

يَوْمَ لَا تَمْلِكُ نَفْسٌ لِنَفْسٍ شَيْئًا ۖ وَالْأَمْرُ يَوْمَئِذٍ لِلَّ

***«O, bir gündür ki, heç kəs heç kəsin dırdinə dəymaz. O gün hökm yalnız Allahındır!»***[1]

Başqa bir yerdə buyurulur:

---

[1] «İnfitar» surəsi, ayə 19.

إِذْ تَبَرَّأَ الَّذِينَ اتُّبِعُوا مِنَ الَّذِينَ اتَّبَعُوا وَرَأَوُا الْعَذَابَ وَتَقَطَّعَتْ بِهِمُ الْأَسْبَابُ

***«O zaman tabe olunmuşlar tabe olanlardan uzaqlaşacaq, əzabı görəcək və aralarındakı bütün əlaqələr qırılacaqdır».***[1]

Bir digər ayədə belə buyurulur:

وَلَقَدْ جِئْتُمُونَا فُرَادَىٰ كَمَا خَلَقْنَاكُمْ أَوَّلَ مَرَّةٍ وَتَرَكْتُمْ مَا خَوَّلْنَاكُمْ وَرَاءَ ظُهُورِكُمْ ۖ وَمَا نَرَىٰ مَعَكُمْ شُفَعَاءَكُمُ الَّذِينَ زَعَمْتُمْ أَنَّهُمْ فِيكُمْ شُرَكَاءُ ۚ لَقَدْ تَقَطَّعَ بَيْنَكُمْ وَضَلَّ عَنْكُمْ مَا كُنْتُمْ تَزْعُمُونَ

***«And olsun, sizi ilk dəfə sizi yaratdığımız kimi, yenə tək olaraq bizə tərəf gəldiniz və sizə verdiyimiz şeyləri arxanızda buraxdınız. Hanı, sizin (şəfaət ya xilqətdə) Allaha şərik hesab etdiyiniz şəfaətçilərinizi yanınızda görmürük?! Aranızdakı əlaqılır kəsilmiş və iddia etdiyiniz şeylər sizdən qeyb olub getmişdir».***[2]

Bir başqa ayədə sözügedən həqiqəti bu şəkildə bəyan edir:

هُنَالِكَ تَبْلُو كُلُّ نَفْسٍ مَا أَسْلَفَتْ ۚ وَرُدُّوا إِلَى اللَّهِ مَوْلَاهُمُ الْحَقِّ ۖ وَضَلَّ عَنْهُمْ مَا كَانُوا يَفْتَرُونَ

***«Orada (qiyamətdə) hər kəs keçmişdə etdiklərindən dönər, hamılıqla həqiqi mövlaları olan Allahın qaytarılarlar. Uydurduqları şeylər onlardan qeyb olub gedər».***[3]

Bu və başqa ayələrdə axirət aləmində dünyəvi əlamətlərin, səbəblərin aradan gedərək yox olduğu bəyan edilir. Axirətlə əlaqəli olaraq göz önündə canlandırılması lazım olan həqiqi və əsl nizam budur!

---

[1] «Bəqərə» surəsi, ayə 166.
[2] «Ənam» surəsi, ayə 94.
[3] «Yunus» surəsi, ayə 30.

Bu əsassız fərziyələr ümumi bir ifadə ilə batil edildikdən sonra təkrar olaraq rədd edilir. Qurani-Kərimdə bu barədə bir çox ayələrə rast gəlirik:

وَاتَّقُوا يَوْمًا لَا تَجْزِي نَفْسٌ عَنْ نَفْسٍ شَيْئًا وَلَا يُقْبَلُ مِنْهَا شَفَاعَةٌ وَلَا يُؤْخَذُ مِنْهَا عَدْلٌ وَلَا هُمْ يُنْصَرُونَ

***«Elə bir gündən qorxun ki, o gün heç kimsə başqasının yerinə bir əvəz ödəyə bilməz, heç kimsədən şəfaət qəbul edilməz, heç kimsədən fidyə alınmaz və kimsə başqalarından yardım görməz».***[1]

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَنْفِقُوا مِمَّا رَزَقْنَاكُمْ مِنْ قَبْلِ أَنْ يَأْتِيَ يَوْمٌ لَا بَيْعٌ فِيهِ وَلَا خُلَّةٌ وَلَا شَفَاعَةٌ ۗ وَالْكَافِرُونَ هُمُ الظَّالِمُونَ

***«Ey iman gətirənlər! Nə alış-veriş, nə dostluq və nə də şəfaətin mümkün olmayacağı bir gün gəlməmişdən öncə, sizə verdiyimiz ruzidən infaq edin! Kafirlər özlərinə zülm edənlərdirlər!»***[2]

يَوْمَ لَا يُغْنِي مَوْلًى عَنْ مَوْلًى شَيْئًا وَلَا هُمْ يُنْصَرُونَ

***«O gün dostun, dosta heç bir faydası olmaz, onlara kömək də edilməz!»***[3]

يَوْمَ تُوَلُّونَ مُدْبِرِينَ مَا لَكُمْ مِنَ اللَّهِ مِنْ عَاصِمٍ

***«O gün üzünüzü çevirib qaçarsınız, amma sizi Allahdan başqa qurtaracaq kimsə yoxdur».***[4]

---

[1] «Bəqərə» surəsi, ayə 48.
[2] «Bəqərə» surəsi, ayə 254.
[3] «Duxan» surəsi, ayə 41.
[4] «Gafir» surəsi, ayə 33.

مَا لَكُمْ لَا تَنَاصَرُونَ بَلْ هُمُ الْيَوْمَ مُسْتَسْلِمُونَ

***«Sizə nə olub ki, bir-birinizə yardəm etmirsiniz? Xeyir, onlar bu gün təslim olmuşlardər!»***[1]

وَيَعْبُدُونَ مِنْ دُونِ اللَّهِ مَا لَا يَضُرُّهُمْ وَلَا يَنْفَعُهُمْ وَيَقُولُونَ هَٰؤُلَاءِ شُفَعَاؤُنَا عِنْدَ اللَّهِ ۚ قُلْ أَتُنَبِّئُونَ اللَّهَ بِمَا لَا يَعْلَمُ فِي السَّمَاوَاتِ وَلَا فِي الْأَرْضِ ۚ سُبْحَانَهُ وَتَعَالَىٰ عَمَّا يُشْرِكُونَ

***«Onlar Allahı qoyub özlərinə nə bir zərər, nə də birfayda verə bilməyən şeylərə sitayiş edir və «Bunlar Allah yanında bizim şəfaətçilərimizdir!» – deyirlər. De ki: «Allaha göylərdə və yerdə bilmədiyi bir şeyimi Allaha xəbər verirsiniz? O, onların qoşduqları şəriklərdən uzaq və ucadır!»***[2]

فَمَا لَنَا مِنْ شَافِعِينَ وَلَا صَدِيقٍ حَمِيمٍ

***«İndi artıq bizim heç bir şəfaətçimiz yoxdur, (bir-birinə deyərlər) Nə də bir dostumuz var!»***[3]

Yuxarıda zikr olunan və eləcə də digər ayələrdə, qiyamət günündə mövcud olacaq şəraitdə şəfaət məsələsi, iltimas, hər hansı vasitəçilik və dünyəvi əlamətlərin olmayacağı qeyd olunmuşdur.

Lakin bütün bunlarla birlikdə, Qurani-Kərimdə şəfaət məsələsi bütünlüklə də rədd edilmir. Əksinə, bəzi hallarda şəfaətin gerçəkləşəcəyi vurğulanır. Aşağıdakı ayələr dediklərimizə əyani sübutdur:

اللَّهُ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا فِي سِتَّةِ أَيَّامٍ ثُمَّ اسْتَوَىٰ عَلَى الْعَرْشِ ۖ مَا لَكُمْ مِنْ دُونِهِ مِنْ وَلِيٍّ وَلَا شَفِيعٍ ۚ أَفَلَا تَتَذَكَّرُونَ

---

[1] «Saffat» surəsi, ayə 25-26.
[2] «Yunus» surəsi, ayə18.
[3] «Şüəra» surəsi, ayə 100-101.

***«O Allah göyləri, yeri və ikisinin arasında mövcud olan canlı-cansız varlıqları altı gündə (mərhəlıdı yaratdı), sonra ərşi yaradıb hökmü altına alan Allahdır. Ondan başqa bir dostunuz, bir şəfaətçiniz yoxdur. Düşüsnüb bir ibrət almırsınızmı?!»***[1]

لَيْسَ لَهُمْ مِنْ دُونِهِ وَلِيٌّ وَلَا شَفِيعٌ

***«Ondan başqa nə dostları, nə də şəfaətçiləri yoxdur».***[2]

قُلْ لِلَّهِ الشَّفَاعَةُ جَمِيعًا ۖ لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ ۖ ثُمَّ إِلَيْهِ تُرْجَعُونَ

***«De: «Bütün şəfaət yalnız Allaha məxsusdur. Göylərin və yerin hökmü Onun aiddir. Sonra siz (qiyamət günü) Ona tərəf qaytarılacaqsınız!»***[3]

لَهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ ۗ مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلَّا بِإِذْنِهِ ۚ يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ

***«Göylərdə və yerdə nə varsa (hamısı) Onundur. Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir».***[4]

إِنَّ رَبَّكُمُ اللَّهُ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ فِي سِتَّةِ أَيَّامٍ ثُمَّ اسْتَوَىٰ عَلَى الْعَرْشِ ۖ يُدَبِّرُ الْأَمْرَ ۖ مَا مِنْ شَفِيعٍ إِلَّا مِنْ بَعْدِ إِذْنِهِ ۚ ذَٰلِكُمُ اللَّهُ رَبُّكُمْ فَاعْبُدُوهُ ۚ أَفَلَا تَذَكَّرُونَ

***«Rəbbiniz olan Allahdır göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan, hər işi yerinə***

[1] «Səcdə» surəsi, ayə 49.
[2] «Ənam» surəsi, ayə 51.
[3] «Zumər» surəsi, ayə 44.
[4] «Bəqərə» surəsi, ayə 255.

***qoyan Allahdır. Onun izni olmadan heç bir şəfaət edən ola bilməz».***[1]

وَقَالُوا اتَّخَذَ الرَّحْمَٰنُ وَلَدًا ۗ سُبْحَانَهُ ۚ بَلْ عِبَادٌ مُكْرَمُونَ لَا يَسْبِقُونَهُ بِالْقَوْلِ وَهُمْ بِأَمْرِهِ يَعْمَلُونَ يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضَىٰ وَهُمْ مِنْ خَشْيَتِهِ مُشْفِقُونَ

***«Dedilər: «Rəhman Özünə övlad götürdü!» O, pak və müqəddəsdir! (Belə şeylərdən tamamilə uzaqdır!) Xeyr, (mələklər Onun övladı deyil, xəlq etdiyi) möhtərəm qullardır. Ondan qabaq söz danışmaz, Yalnız Onun əmri ilə iş görərlər. Onların öndəkilərini də, arxalarındakını da bilir. Onlar yalnız (Allahın) razı olduğu (izin verdiyi) kəslərdən ötrü şəfaət edə bilər və Onun heybətindən qorxarlar».***[2]

وَلَا يَمْلِكُ الَّذِينَ يَدْعُونَ مِنْ دُونِهِ الشَّفَاعَةَ إِلَّا مَنْ شَهِدَ بِالْحَقِّ

***«Ondan qeyri ibadət etdikləri şəfaət edə bilməzlər. Ancaq haqqa şəhadət verənlər müstəsnadır».***[3]

لَا يَمْلِكُونَ الشَّفَاعَةَ إِلَّا مَنِ اتَّخَذَ عِنْدَ الرَّحْمَٰنِ عَهْدًا

***«Rəhmandan əhd almış kəslər istisna olmaqla, qalanları (kafirlər) şəfaət etməyə qadir olmazlar».***[4]

يَوْمَئِذٍ لَا تَنْفَعُ الشَّفَاعَةُ إِلَّا مَنْ أَذِنَ لَهُ الرَّحْمَٰنُ وَرَضِيَ لَهُ قَوْلًا يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يُحِيطُونَ بِهِ عِلْمًا

***«O gün Rəhmanın izin verdiyi və söz danışmağına razı olduğu kəslərdən başqa heç kimin şəfaəti fayda verməz!***

---

[1] «Yunus» surəsi, ayə 3.
[2] «Zuxruf» surəsi, ayə 26-28.
[3] «Bəqərə» surəsi, ayə 86.
[4] «Məryəm» surəsi, ayə 87.

***Onların keçmişini də, gələcəyini də bilir. Onların elmi isə Onu (Allahın zatını) əhatə edib qavraya bilməz!»***[1]

وَلَا تَنْفَعُ الشَّفَاعَةُ عِنْدَهُ إِلَّا لِمَنْ أَذِنَ لَهُ

***«Onun hüzurunda, izin verdiyi kimsələr istisna olmaqla, heç kəsin şəfaəti fayda verməz».***[2]

وَكَمْ مِنْ مَلَكٍ فِي السَّمَاوَاتِ لَا تُغْنِي شَفَاعَتُهُمْ شَيْئًا إِلَّا مِنْ بَعْدِ أَنْ يَأْذَنَ اللَّهُ لِمَنْ يَشَاءُ وَيَرْضَىٰ

***«Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti heç bir fayda verməz. Ancaq Allah Öz istədiyi və razı olduğu kimsəyə izin verdikdən sonra».***[3]

Məlum olduğu kimi, bu ayələrin ilk üçü şəfaətin bütünlüklə Allahın ixtiyarında olduğunu söylədiyi halda, qalan ayələrdə Allahın izni olduğu şəraitdə başqalarının da şəfaət edə biləcəkləri vurğulanır. Hansı yöndən baxılarsa baxılsın, bu ayələr şəfaətin varlığını ortaya qoyur. Ancaq bu ayələrin bir qismi şəfaətin təməldən tək və şəriksiz Allaha məxsus olduğunu vurğulayarkən, digər qismi Allahın izni olduğu halda, başqalarının da şəfaət edə biləcəklərini qeyd edir.

Şəfaəti təməldən inkar edən ayələrdə şəfaətin inkar edilməsi, Allahdan başqasının qeybi bilməsini inkar edən ayələri anlatmaqdır. Uca Allah, qeybi bilməyi bütünlüklə özünəməxsus və başqalarının qeybi bilməsini öz razılığına, təsdiqinə əlaqəli edib. Qurani-Kərimdə bu xüsusilə əlaqəli olaraq belə buyurulur:

---

[1] «Taha» surəsi, ayə 109-110.
[2] «Səba» surəsi, ayə 23.
[3] «Nəcm» surəsi, ayə 26.

قُلْ لَا يَعْلَمُ مَنْ فِي السَّمَاوَاتِ وَالْأَرْضِ الْغَيْبَ إِلَّا اللَّهُ

***«De ki: «Göylərdə və yerdə Allahdan başqa kimsə qeybi bilməz!»***[1]

وَعِنْدَهُ مَفَاتِحُ الْغَيْبِ لَا يَعْلَمُهَا إِلَّا هُوَ

***«Qeybin açarları, Onun yanındadır. Onları Ondan başqası biləz».***[2]

عَالِمُ الْغَيْبِ فَلَا يُظْهِرُ عَلَىٰ غَيْبِهِ أَحَدًا إِلَّا مَنِ ارْتَضَىٰ مِنْ رَسُولٍ فَإِنَّهُ يَسْلُكُ مِنْ بَيْنِ يَدَيْهِ وَمِنْ خَلْفِهِ رَصَدًا

***«O, qeybi biləndir, Öz qeybini heç kəsə aşkar etməz. Ancaq razə olduğu peyğəmbərdən başqa!»***[3]

Eyni vəziyyət ölüm, yaratmaq, ruzi vermək, zəlil etmək, hökumətə sahib olmaq kimi hadisələri ifadə edən ayələrdə də mövcuddur. Quranın ifadə tərzində bu oxşar üslub başqa ayələrdə də müşahidə olunur. Bu cür ayələrdə Allahdan başqa bütün varlıqların mükəmməlikləri qətiyyətlə inkar edilir. Daha sonra bu mükəmməllik bütünlüklə Allaha məxsus edilir və Allahdan başqa varlıqların da Onun izni və iradəsi ilə bir qrup kamallara sahib ola biləcəkləri vurğulanır.

Bu ifadə tərzində əldə etdiyimiz nəticə budur ki, uca Allahdan başqa bütün varlıqların bu cür kamallara sahib olmaları, özlərindən qaynaqlanan məxsus bir xüsusiyyətlərə sahiblik deyildir; onlar, sahib olduqları fəzilətlərə Allahın istədiyi sayəsində sahib ola bilmişlər. Hətta Qurani-Kərimdə haqqında qəti olaraq hökm verilmiş mövzularda belə, ilahi iradə üçün bir açıq qapı vardır. Bu mövzularda belə «Allah

---

[1] «Nəml» surəsi, ayə 65.
[2] «Ənam» surəsi, ayə 59.
[3] «Cinn» surəsi, ayə 26-27.

istərsə, əksinə edə bilər» - deyə vurğulamışdır. Uca Allah belə buyurur:

فَأَمَّا الَّذِينَ شَقُوا فَفِي النَّارِ لَهُمْ فِيهَا زَفِيرٌ وَشَهِيقٌ خَالِدِينَ فِيهَا مَا دَامَتِ السَّمَاوَاتُ وَالْأَرْضُ إِلَّا مَا شَاءَ رَبُّكَ ۚ إِنَّ رَبَّكَ فَعَّالٌ لِمَا يُرِيدُ وَأَمَّا الَّذِينَ سُعِدُوا فَفِي الْجَنَّةِ خَالِدِينَ فِيهَا مَا دَامَتِ السَّمَاوَاتُ وَالْأَرْضُ إِلَّا مَا شَاءَ رَبُّكَ ۖ عَطَاءً غَيْرَ مَجْذُوذٍ

***«Bədbəxt olanlar od içərisindədirlər. Orada onları üçün bir sızıltı vardır. Sənin Rəbbinin istədiyindən başqa, göylər və yerdurduqca orada əbədi qalacaqlar. Çünki, Rəbbin istədiyini mütləq həyata keçirəndir. Xoşbəxt olanlar isə, Rəbbinin istədiyindın başqa, göylər və yer durduqca Cənnətdə əbədi qalarlar. Ardı kəsilməyən, davamlı bir bəxşişdir bu».***[1]

Bu ayədən anlaşıldığı kimi, sonsuzluq da Allahın istəyinə bağlıdır. Xüsusilə cənnətdəki davamlı həyatın Allahın bir lütfü olduğu vurğulanmaqla bərabər, bunun belə Allahın istəyi ilə bağlı olduğu buyurulur. Bu ifadə ilə bildirilən bəyan budur ki, uca Allah sonsuzluğa hökm etmişdir. Lakin bu sonsuzluq Onun nəzarətindən xaricə çıxmaz, hökmranlığını, uca qüdrətini və nüfuzunu dəyərsiz etməz. Rəbbin istədiyini edəndir» cümləsi də, bilavasitə bu fikrə işarə edir.

Bir sözlə, bütünlüklə Allahın nəzarətindən çıxan, Onu bir anlamda məhrum və möhtac qoyan heç bir qüvvə yoxdur. Lütf edəcəyi bir şeyin qarşısını almaq mümkün deyildir. Heç bir güc Onun nüfuzunu sarsıda və hökmünü qüvvədən sala bilməz.

Bununla da anlaşılır ki, sözügedən mövzunu inkar edən ayələr qiyamət günündə olacaq şəfaətin, Allahdan başqasına şəfaətçiliyin müstəqil olaraq şəfaət etməsi anlamında inkar edilir. Şəfaət varlığını ifadə edən ayələrdə isə, onun təməldə

---

[1] «Hud» surəsi, ayə 106-108.

Allaha məxsus bir səlahiyyət olduğu, Allahdan başqasının, yalnız Onun izni və iradəsiylə şəfaət edə biləcəyi buyurulur. Bu halda, Allahdan başqasının şəfaətçilik etməsi Onun izninə bağlıdır. Elə isə, şəfaətin nə anlamda olduğunu və bununla bağlı qarşıya çıxan məsələləri araşdırmaq istərdik. Şəfaət hansı şəraitdə və kimin üçün mümkündür? Nə zaman reallaşır? Uca Allahın əfv etməsi və bağılşaması nə dərəcədədir?

## ŞƏFAƏT NƏDİR?

Biz insanların bir-biri ilə ünsiyyətdə olduğu bu həyatda əldə etdiyimiz, dəyərləndirdiyimiz və bildiyimiz mənada şəfaət, sadəcə olaraq məqsədlərimizə yetişmək, həyatımızdakı ehtiyaclarımızı ödəmək məqsədiylə çalışdığımız üslublardan və baş vurduğumuz yollardan biridir. Kəlmə etibariylə, «tək» mənasında olan «vitr»in qarşılığı olan «cüt» anlamındakı «şəf» kökündən törəmişdir. Sanki şəfaət edən kimsə, şəfaət olunan kimsənin yanında yardımçı olur. Bununla da, tək və imkansız olduğuna görə istədiyinə yetişə bilməyən şəxs, şəfaətçinin yardımıyla istədiyinə daha rahat yetişə bilər.

Şəfaət mövzusunu araşdırdıqda məlum olur ki, şəfaət qismən bir fayda və xeyr əldə etmək, ya bir zərər və şəri dəf etmək məqsədinə görədir. Bütün fayda və zərərlər üçün labüd deyildir. Çünki biz təbii səbəb və kainatın qanunlar sisteminin əhatəsində olan xüsuslarla əlaqəli xeyir və şərlərdə, fayda və zərərlərdə bir başqasını şəfaətçiliyinə möhtacıq. Aclıq, susuzluq, isti, soyuq və xəstəlik vəziyyətində olduğu kimi. Bu kimi vəziyyətlərdə təbii səbəbləri araşdırır, uyğun vasitəçilər axrarır və münasib üsullardan istifadə edirik. Yemək, icmək, geyinmək, qorunmaq və müalicə olmaq kimi.

Biz cəmiyyətləri idarə edənlərin tanıdığı, tərtib etdiyi məxsus xüsusiyyətli hökmlərin, qanunların və sistemlərin lazım bildiyi və qarşıya çıxartdığı xeyirlər, şərlər faydalar və zərərlə əlaqəli olaraq, başqalarının himayədarlığına, şəfaət etmələrinə ehtiyac duyuruq.

Ağalıq və köləlik çərçivəsində idarə edənlə, idarə olunan əlaqələrində bir qrup əmr və ğadağa tipli hökmlər vardır. Məcburi olan bu hökmlər yerinə yetirildiyi təqdirdə tərifə layiq olur və ya məqam, ya da maddi mənfəət qazanılır. Hökmlərə müxalifət edib başqaldırıldığı təqdirdə, çox acınacaqlı bir müqavimətlə qarşılaşılır. Bu vəziyyətə düşən insanlar maddi və ya mənəvi zərərə uğrayırlar. Ağa, köləsinə və ya nüfuzu altında olan hər kəsə bir əmr verdikdə və ya bir şeyi qadağan etdikdə, əmrə tabe olan şəxs lazım olanı etdiyi zaman mükafatlandırlır. Lakin müxalifət etdikdə, əziyyət verilərək cəzalandırılır. Bu halda, iki cür qərar və dəyərləndirilmə ilə qarşı-qarşıyıq: hökmün qəbul və ya ləğv edilməsi. Yəni ya hökmün icra olunması və ya hökmü icra edənlərə müxalif olaraq, hökmün icrasını dayandırmaq.

Bəşəriyyətdə mövcud olan ümumi xüsusiyyətli və insan əmri altında olanlar arasındakı məxsus xüsusiyyətli hökmranlıqlar bu təməl üzərində cəmləşir. Daha doğrusu, bir insan cəmiyyətinin meydana gətirdiyi nizamlara, qanunlara və haqqın meyarına uyğun olmadan, maddi və ya mənəvi bir xeyirə və kamala yetişmək, yaxud əks tərəfdən özünə yönələn bir pisliyi dəf etmək istəyərsə, lakin əlində dəfedici bir vasitə olmazsa, – dəfedici vasitə dedikdə, qanunlara tabe olaraq, üzərindən məsuliyyəti götürməyi nəzərdə tuturam – daha aydın bir ifadə ilə desək, bir insan vəzifələrini yerinə yetirmədən, səbəblərini hazırlamadan bir savab, mükafat əldə etmək istəyib və ya boynunda olan məsuliyyəti yerinə yetirmədən, bir

cəzadan xilas olmağa cəhd edərsə, bu, şəfaətin təsir dairəsinə daxil olar. Belə bir vəziyyətdə şəfaət təsiredici rol oynaya bilər. Lakin bu təsir şərtsiz, hüdudsuz deyildir. Məsələn, yüksək elmli bir məqama yetişmək istəyən, lakin yazmaq-oxumaq bilməyən bir cahil kimi. Kamal zirvəsinə yetişmək üçün bir ləyaqatə sahib olmayan və şəfaət edilən məqama bağlanacaq hər hansı bir vasitəsi olmayan kimsə üçün şəfaətin heç bir faydası olmaz. Çünki şəfaət, öz-özülüyündə bir təsirə sahib deyildir. Naqistlik, səbəbin tamamlanmaması ünsürdür.

Qeyd edək ki, qismən taleyi hakimin əlində olan bir insanın hakimə təsir etməsi, səbəblərdən kənar və ölçüsüz bir təsir deyildir. Əksinə, hakim üzərində təsiredici səbəbləri əmələ gətirmək lazım gəlir ki, cəzadan xalis ola bilsin. Məsələn, şəfaətçi ağadan öz ağalığını və köləsinin köləliyini qüvvədən salıb, onu cəzalandırmamasını istəyə bilməz. Ağadan öz hökmündən əl çəkməsini, köləsinin üzərinə məsuliyyət qoymaqdan çəkindirməsini, ümumilikdə və ya hər hansı hadisəylə əlaqədər olaraq hökmünü geri götürməsini tələb edə bilməz. Eyi şəkildə, şəfaətçi hakimdən ümumilikdə və ya məxsus bir vəziyyətdə cəza hökmünü qüvvədən salıb, cəzalandırılmamasını istəyə bilməz. Bu səbəbdən ağalıq, qulluq, hökm və cəza sistemi üzərində şəfaətçinin heç bir təsiri yoxdur. Şəfaətçi, sözügedən bu üç cəhətə açıq gözlə baxdıqda, mübahisəsiz qəbul etdikdən sonra hakimlik məqamında olan ağanın cömərdliyi, mərdliyi, şərəfi və ucalığı kimi əvf etməyi və bağışlamağı lazım olan xüsusiyyətlərini, ya kölənin misginliyi, fəqirliyi və pis vəziyyətə düşməsi kimi insana təsir edən sifətlərini, ya da bilvasitə öz xüsusiyətlərini, nüfuzunu, məqamını, ağaya olan, yaxınlığını əsas götürərək, belə deyər: «Səndən xahiş edirəm ki, öz ağalığını və onun köləliyini nəzərə alaraq, hökmü dəyişib, cəzadan azaldasan. Əksinə, səndən onu

bağışlamanı istəyirəm. Çünki sən, ağasan, acıma duyğusuna sahibsən, comərdsən. Onu cəzalandırmaq sənə bir fayda verməz, günahlarını bağışlaman da sənə bir zərər toxundurmaz» və ya «O, zəif, fəqir bir cahildir. Sənin kimilər onun məqamından yüksəkdir. Sənə olan hörmətimə və yaxınlığıma arxalanaraq, onun əfv olunmasını istəyirəm».

Bu mövzuya diqqət edən görür ki, şəfaətçi məhkumun cəzalandırması hökmünü qüvvədən salmaq üçün şəfaətə ehtiyacı olanın bəzi xüsusiyyətlərini təsir vasitəsi kimi istifadə edərək, vasitəçilik edir. Beləcə, mövzu bir hökmün əhatəsindən çıxıb, digər bir hökmün əhatəsinə daxil olur. Yoxsa, birinci hökmün əhatəsində olduğu halda hökmün ləğv olunması mümkün deyildir. Yəni yaradılışda bir-birinə zidd amillərin bəzisinin digərinin fəaliyyətini zəiflətməsi və ona qələbə çalması qeyri-mümkündür. Bu halda şəfaətin həqiqi anlamı, mövzunun bir hökmün əhatəsindən çıxıb, digər hökmün əhatəsinə daxil edilməsini təmin edərək bir zərəri dəfetmə, bir fayda əldə etmə və ya bir məqsədə yetişmək üçün vasitəçilik funksiyasıdır.

Bununla da, şəfaətin səbəbiyyət qanunu ilə əmələ gəlməsi məlum olur. Çünki şəfaət yaxın səbəbi, ilk və uzaq səbəb ilə müsəbbəbləri[1] arasında vasitəçilik etməkdən ibarətdir. Şəfaət məfhumunun amlamı üzərində etdiyimiz araşdırmalardan əldə etdiyimiz nəticə, bundan ibarətdir. Səbəbiyətlə əlaqəli olaraq uca Allahın tədbiri, iki baxımdan dəyərləndirilə bilər:

1. Fəaliyyət Allahdan başlar və səbəbiyyət Onunla sona çatar.

Ona görə də Allah hüdudsuz və şərtsiz yaratma və meydana gətirmə gücünə sahibdir. Bütün amillər və səbəblər

---

[1] Səbəblərin təsirlənənlər.

Allahla başqaları arasında tükənməz rəhmətinin, yaratdıqlarına yönəldiyi saysız nemətlərinin yayılması və axtarılmasının vasitəçiləridirlər.

2. Uca Allah sonsuz ucalığıyla birlikdə bizə yaxınlaşaraq, lütf etdiyi dinini bir qanun sistemi olaraq həyat yolu qoymuş, bir qrup əmr və qadağa qəbilindən olan hökmlər bildirmişdir. Axirət aləmində vəd edildiyi kimi, əmr və qadağalara tabe olmaq və ya qarşı çıxmaq, təslim olmamaq müqabilində bir qrup mükafat və cəzalar yer tutur. Bu məqsədə doğru istiqamətləndirən, cənnətlə müjdələyən və cəhənnəm əzabından xəbərdar edən peyğəmbərlər göndərilmişdir. Bu peyğəmbərlər də, uca Allahdan aldıqları təlim - vəhyi ən gözəl şəkildə mənimsəyərək, insanlara bir höccət oldular. Bununla da, Allahın kəlamının tam mənası tamamlanmış oldu. Heç kim Onun müqəddəs kəlamını dəyişdirə bilməz!

Bu ilk dəyərləndirmə əsas götürülərək mövzuya baxılsa görüləcəkdir ki, bu təkvinlə (yaradılış) əlaqəli bir dəyərlındirmədir. Bu vəziyyətdə, şəfaət məfhumunun varlıqla əlaqəli səbəb və səbəblərə intibaq[1] etdiyi açıq-aydındır. Çünki varlıqla əlaqəli səbəblər, uca Allahın rəhmət, yaratma, ruzi və diriltmək kimi üstün sifətlərindən faydalanıb, müxtəlif nemət və lütfləri, yaradılmışdan möhtac vəziyyətdə olanlara yetişdirirlər. Uca Allahın bəzi kəlamları da bu mənanı bildirir:

لَهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ ۗ مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلَّا بِإِذْنِهِ

***«Göylərdə və yerdə olanların hamısı Onundur. Onun izni olmadan, hüzurunda kim şəfaət edə bilər?»***[2]

[1] Tətbiq olunma.
[2] «Bəqərə» surəsi, ayə 255.

رَبَّكُمُ اللَّهُ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ فِي سِتَّةِ أَيَّامٍ ثُمَّ اسْتَوَىٰ عَلَى الْعَرْشِ ۖ يُدَبِّرُ الْأَمْرَ ۖ مَا مِنْ شَفِيعٍ إِلَّا مِنْ بَعْدِ إِذْنِهِ ۚ ذَٰلِكُمُ اللَّهُ رَبُّكُمْ فَاعْبُدُوهُ ۚ أَفَلَا تَذَكَّرُونَ

***«Rəbbiniz olan Allahdır ki, göyləri və yeri altı gündə (mərhələdə) yaratdə. Sonra ərşi yaradıb hökmü aldı. Hər işi yerinə qoyan Allahdır. Onun izni olmadan heç kimsə şəfaət edə bilməz».***[1]

وَلَا يَمْلِكُ الَّذِينَ يَدْعُونَ مِنْ دُونِهِ الشَّفَاعَةَ إِلَّا مَنْ شَهِدَ بِالْحَقِّ وَهُمْ يَعْلَمُونَ

***«Ondan qeyri ibadət etdikləri (Allah yanında heç bir kəs üçün) şəfaət edə bilməzlər».***[2]

Bu halda şəfaət, yaradılışla əlaqəli bir sahədə səbəb və səbəbləri Onunla müsəbbəbələr arasında, müsəbbəblərin missiyalarını planlaşdırmaq, varlıqlarını və yaşayışlarını nizamlamaq nöqtəsində vasitəçilik etməsidir. Buna, «təkvini şəfaət» deyilir.

İkinci dəyərləndirmə əsas götürülsə, məsələnin təşri olduğu görüləcəkdir. Bu vəziyyətdə belə demək olar ki, etdiyimiz araşdırmalardan açıq-aydın anlaşıldığı kimi, şəfaət mövzusuna düzgün yanaşıldığı zaman, doğru bir anlam ifadə edər. Aşağıdakı ayələrdə bu anlama işarə olunmuşdur:

يَوْمَئِذٍ لَا تَنْفَعُ الشَّفَاعَةُ إِلَّا مَنْ أَذِنَ لَهُ الرَّحْمَٰنُ وَرَضِيَ لَهُ قَوْلًا يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يُحِيطُونَ بِهِ عِلْمًا

***«O gün Rəhmanın izin verdiyi və söz danışmağına razı olduğu kəslərdən başqa heç kimin şəfaəti fayda verməz!»***[3]

---

[1] «Yunus» surəsi, ayə 3.
[2] «Zuxruf» surəsi, ayə 86.
[3] «Taha» surəsi, ayə 109-110.

وَلَا تَنْفَعُ الشَّفَاعَةُ عِنْدَهُ إِلَّا لِمَنْ أَذِنَ لَهُ

***«Onun hüzurunda, izin verdiyi kimsələrdən başqa, heç kəsin şəfaəti fayda verməz».***[1]

لَا تُغْنِي شَفَاعَتُهُمْ شَيْئًا إِلَّا مِنْ بَعْدِ أَنْ يَأْذَنَ اللَّهُ لِمَنْ يَشَاءُ وَيَرْضَىٰ

***«Onların şəfaəti heç bir fayda verməz. Ancaq Allah Öz istədiyi və razı olduğu kimsəyə izin verdikdən sonra».***[2]

وَلَا يَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضَىٰ

***«Allahın razı olduğundan başqasına şəfaət etməzlər».***[3]

Gördüyünüz kimi, ayələrdə yardım etmək mənasında da, ilahi izn və rizadan sonra mələklərdən və insanlardan bəzilərinin şəfaət edəcəkləri vurğulanır. Bu halda şəfaət, mülk və əmr səlahiyyəti, özünəməxsus olan uca Allahın bəzi kəslərə verdiyi bir səlahiyyətdir. Buna görə də şəfaət edəcək kəslər, Allah-Təalanın rəhmət, əfv, bağışlama və buna bənzər üstün xüsusiyyətlərinə bağlanaraq, günahdan acınacaqlı vəziyyətə düşmüş, əzab bəlasına düçar olmuş bəndələrindən birini Onun rəhmətinin əhatəsinə daxil edilməsini, sıxıcı əzabın və töhmətin xaricində qalması təmin edərlər. Bu səbəbdən də açıqlandığımız kimi, şəfaətin təsiri, mövzunu bir hökmün əhatəsindən çıxarıb, digər bir hökmün əhatəsinə daxil etdikdə olur; eyni hökmün əhatəsində qaldıqda, hökmün dəyişdirilməsi mümkünsüzdür. Növbəti ayədə dediklərimizə əyani sübutdur:

إِلَّا مَنْ تَابَ وَآمَنَ وَعَمِلَ عَمَلًا صَالِحًا فَأُولَٰئِكَ يُبَدِّلُ اللَّهُ سَيِّئَاتِهِمْ حَسَنَاتٍ

---

[1] «Səba» surəsi, ayə 23.
[2] «Nəcm» surəsi, ayə 26.
[3] «Ənbiya» surəsi, ayə 28.

***«Ancaq tövbə edib iman gətirən və saleh əmıllər edənlər müstəsnadır. Allah onların pis əməllərini yaxşı əməllərə çevirər».***[1]

Uca Allah bir əməli digər bir əmələ əvəz edə, mövcud olan bir əməli də aradan apara bilər. Bu xüsusla əlaqəli olaraq Allah-Təala belə buyurur:

وَقَدِمْنَا إِلَىٰ مَا عَمِلُوا مِنْ عَمَلٍ فَجَعَلْنَاهُ هَبَاءً مَنْثُورًا

***«Onların etdikləri hər hansı bir (yaxşı) əməli Biz qəsdən (havadan uçan) dağınıq zərrələrə (toz dənələrinə) döndərərik!»***[2]

ذَٰلِكَ بِأَنَّهُمْ كَرِهُوا مَا أَنْزَلَ اللَّهُ فَأَحْبَطَ أَعْمَالَهُمْ

***«Allah onların əməllərini hədər etmişdir».***[3]

إِنْ تَجْتَنِبُوا كَبَائِرَ مَا تُنْهَوْنَ عَنْهُ نُكَفِّرْ عَنْكُمْ سَيِّئَاتِكُمْ وَنُدْخِلْكُمْ مُدْخَلًا كَرِيمًا

***«Əgər sizə qadağan olunmuş böyük günahlardan çəkinərsiniz, sizin kiçik günahlarınızı silər və sizi (şərəfli bir mənzilə) çatdırarıq».***[4]

إِنَّ اللَّهَ لَا يَغْفِرُ أَنْ يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَنْ يَشَاءُ ۚ وَمَنْ يُشْرِكْ بِاللَّهِ فَقَدِ افْتَرَىٰ إِثْمًا عَظِيمًا

***«Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını***

---

[1] «Furqan» surəsi, ayə 70.
[2] «Furan» surəsi, ayə 23.
[3] «Məhəmməd» surəsi, ayə 9.
[4] «Nisa» surəsi, ayə 31.

***bağışlar. Allaha şərik qoşan şəxs, əlbəttə, böyük günah etmiş olur».***[1]

Qətiyyətlə deyə bilərik ki, bu ayə iman və tövbəylə əlaqəli deyildir. Çünki iman və tövbə ilə bərabər, digər günahlar kimi, şirk günahı da bağışlanmanın əhatəsinə daxil olar.

Allah-Təala az olan bir əməli artırmaq və ya çoxaltmaq qüdrətinə sahibdir:

أُولَٰئِكَ يُؤْتَوْنَ أَجْرَهُمْ مَرَّتَيْنِ بِمَا صَبَرُوا وَيَدْرَءُونَ بِالْحَسَنَةِ السَّيِّئَةَ وَمِمَّا رَزَقْنَاهُمْ يُنْفِقُونَ

***«Onlara səbr etdiklərinə görə onlara iki dəfə mükafat veriləcəkdir».***[2]

مَنْ جَاءَ بِالْحَسَنَةِ فَلَهُ عَشْرُ أَمْثَالِهَا ۖ وَمَنْ جَاءَ بِالسَّيِّئَةِ فَلَا يُجْزَىٰ إِلَّا مِثْلَهَا وَهُمْ لَا يُظْلَمُونَ

***«Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi (savabı) verilər. Kim pis bir iş görərsə, ona həmin işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz».***[3]

Eyni şəkildə, Allah-Təala mövcud olmayan bir əməli varetmə gücünə, qüdrətinə də sahibdir:

وَالَّذِينَ آمَنُوا وَاتَّبَعَتْهُمْ ذُرِّيَّتُهُمْ بِإِيمَانٍ أَلْحَقْنَا بِهِمْ ذُرِّيَّتَهُمْ وَمَا أَلَتْنَاهُمْ مِنْ عَمَلِهِمْ مِنْ شَيْءٍ ۚ كُلُّ امْرِئٍ بِمَا كَسَبَ رَهِينٌ

***«İman gətirib övladları imanla arxalarınca gedənlərin nəsillərini də (Cənnətdə) özlərinə qoşacağıq. Onların***

---

[1] «Nisa» surəsi, ayə 48.
[2] «Qəsəs» surəsi, ayə 54.
[3] «Ənam» surəsi, ayə 160.

***əməllərindən heç bir şey əskiltməyəcəyik. Hər kəs öz əməlinin girovudur!»***[1]

Bu ayə, əməllərə başqa əməllərin də qatılacağını ifadə edir. Qisası, uca Allah istədiyini edər və istədiyi kimi hökm verər.

Bəli, uca Allah istədiyinə reallaşdıracaq bir məqam qərar verir ki, vasitələrlə icra olunsun. Peyğəmbərlərin, övliyaların və seçilmiş bəndələrdən bəzi kimsələrin şəfaəti də, şübhəsiz, bu mövzudandır.

Beləliklə, anlaşıldı ki, vasitəçilik anlamında şəfaət, həqiqətdə, uca Allahın iradəsi kimi qəbul edilir. Çünki Onun hər sifəti yaratdıqları arasında bir vasitəçi mövqeindədir; yaranmışlara ilahi cömərdliyi və yaradılışın nəzərini bildirirlər. Həqiqi anlamda, mütləq şəfaətçi Odur. Bu xüsusilə əlaqəli olaraq uca Allah belə buyurur:

قُلْ لِلَّهِ الشَّفَاعَةُ جَمِيعًا ۖ لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ ۖ ثُمَّ إِلَيْهِ تُرْجَعُونَ

***«De: «Bütün şəfaət yalnız Allaha məxsusdur. Göylərin və yerin hökmü Onun əlindədir. Sonra siz (qiyamət günü) Onun hüzuruna qaytarılacaqsınız!»***[2]

وَأَنْذِرْ بِهِ الَّذِينَ يَخَافُونَ أَنْ يُحْشَرُوا إِلَىٰ رَبِّهِمْ ۙ لَيْسَ لَهُمْ مِنْ دُونِهِ وَلِيٌّ وَلَا شَفِيعٌ لَعَلَّهُمْ يَتَّقُونَ

***«Ondan başqa nə dostları, nə də şəfaətçiləri yoxdur».***[3]

Allahdan başqa biri əgər şəfaət edəcəksə, bu, yalnız və yalnız Allahın izni və səlahiyyət verməsi ilə məhkum olacaqdır. Yuxarıdakı izahlarımızda da, Onun uca məqamına

[1] «Tur» surəsi, ayə 21.
[2] «Zumər» surəsi, ayə 44.
[3] «Ənam» surəsi, ayə 51.

münasib olduqda və bir uyğunsuzluq olmadığı təqdirdə, dərgahında şəfaətin gerçəkləşəcəyi isbat edildi.

## ŞƏFAƏT QARŞI İRƏLİ SÜRÜLƏN İRADLARIN CAVABLANDIRILMASI

Şəfaət bəzi hallarda mümkün olduğunu və bizim də bu barədə xüsusi bir açıqlama verməyəcəyimizi atıq bilirsən. Eyni şəkildə, qarşıda Kitab və sünnətin də bundan artığını bəyan etmədiyini görəcəksən. Daha doğrusu, sırf şəfaət məfhumunun ifadə etdiyi anlam üzərində dərin bir düşüncəylə düşünmək də, insanı belə bir nəticəyə gətirə bilər. Əvvəldə də bildirdiyimiz kimi, şəfaət anlam olaraq səbəbiyyət və fəaliyyət baxımından bir cür vasitəçiliyə, himayədarlığa ehtiyaclıdır. Şəfaət üçün hüdudsuz bir səbəbsizlik anlamı mövcud deyildir. Heç bir səbəb şərtsiz olaraq bütün müsəbbəblərin səbəbi xüsusiyyətini qazana, eləcə də heç bir müsəbbəb, mütləq mənada bütün səbəblərdən təsirlənən müsəbbəb mövzusunda ola bilməz. Belə bir vəziyyət səbəbiyyət qanununun anlamsızlığı nəticəsini doğurur ki, bu da, heç şübhəsiz, səhvdir.

Beləcə, şəfaət mövzusunu qəbul etməyənlər bu xüsusda yanılaraq, şəfaətin heç bir şərtə bağlı olmayan mütləq bir təsir qüvvəsi olduğu zənninə qapılmış, bu səbəbdən də bəzi baxımlarda məsələnin daxilindən kənara çıxa bilməmişlər. Bu hərəkətlə də, Quranla sabit olan reallığı – şəfaəti inkaretmə əsasına söykənən düşüncələr meydana gətirmişlər. Onlar tərəfindən irəli sürülən şəfaətlə əlaqəli nəzərlərin bir qismini qeyd edirik.

**Birinci irad:** Uca Allahın təkidlə vurğuladığı bir cəzanın qiyamət günü günahkara qarşı tətbiq olmaması ya ədalət prinsipi, ya da zülmə söykənən bir əməldir. Əgər bu ədalətli bir

əməldirsə, bu vəziyyətdə əvvəldə deyildiyi cəzalandırma ilə əlaqəli hökm zülm xüsusiyyətli olur; bu isə, uca Allaha yaraşmaz! Əgər zülmə söykənən bir əməldirsə, bu vəziyyətdə peyğəmbərin şəfaətləri uca Allahdan zülm tələbetmə olaraq qəbul edilir ki, bu da Peyğəmbərə (s) uyğun olmayan bir cəhalətdir.

**Cavab:** Əvvəla, bütün imtahan hədəfli əmrlərdə vəziyyət belədir; imtahan hədəfli hökmün əvvəlcə verilməsi sonra da qüvvədən saldırılması, hər ikisi də ədalətin lüzumudur. Bu kimi əmrlərdəki təməl, mükəlləfin daxilindəki gizli xüsusiyyətlərini lazımınca ortaya çıxarmaq, ya da onda olan bil-qüvvəni, bil-feilə çevirməkdir.[1]

Qiyamət günü bütün möminlər üçün qurtuluş mümkün ola bilər. Hökmlərin tamamlanacağı gün bu hökmlərə zidd hərəkət edənlərin – kafirlərin küfrlərinə görə həlak olmaları üçün müxtəlif cəzalar olacaqdır. Möminlərə gəlincə, aralarında yer alan möhsinlərin dərəcələri itaətlərinə görə yüksələr. Arxada qalan günahkarlar və pis əməl sahibləri isə, şəfaət vasitəsi ilə onlar üçün imkan olan qurtuluşa nail olarlar. Bərzəx aləmi və qiyamətin dəhşətverici şəraitində bəzi əzablara düçar olsalar belə, qurtuluşa yetişərlər. Bu halda həm hökmlərin müxalifinə əzab verilməsi və daha sonra bu əzabın aradan qaldırılması ədalət nizamına uyğundur.

İkinci cavabımız isə belədir: Bu mərhələdə şəfaət vasitəsi olmadan cəzanın aradan qaldırılmasınının mümkünlüyü ədalətə, ya da zülmə bağlı bir əməl olma baxımından birinci hökmlə, eləcə də cəzasının verilən ilk hökm və ya hökmün cəzasıyla nəticələndirilməsi üsuluyla ziddiyyətli olduqda

[1] Yeni mövcud olan isdedadın aşkar edilib, çiçəkləndirilməsini təmin etmək.

mümkün ola bilər. Lakin bunun belə olmadığı məlum məsələdir. Çünki şəfaətin təsir qüvvəsi hökmlə ziddiyyət təşkil edəcək bir şəkildə deyil, mövzunu hökmün əhatəsindən ayırmaq şəklindədir. Şəfaət, vasitəçiliyi ilə günahı cəzanın əhatə dairəsindən çıxarıb, Allahın rəhmət, əfv və bağışlama kimi sifətlərinin əhatə dairəsinə daxil edir. Uca Allahın şəfaətçiyə lütf etdiyi bu məqamı və onu şərəfləndirməsi də, sözügedən ilahi sifətlərdən biridir.

**İkinci irad:** Uca Allahın qoyduğu ümümbəşər qanunlar sistemində, Onun fellərinin təsirinin aradan getməsi və ya dəyişikliyə məruz qalması mümkün deyildir. Bir işə qərar verdikdə və ya bir hökm qoyduqda, onu istisnasız olaraq tək bir çizgidə və davamlı olaraq, eyni tərzdə çalıdırar. Səbəbiyyət qanunu da bu tərzdədir.

Allah-Təala İblisə buyurur:

قَالَ هَٰذَا صِرَاطٌ عَلَيَّ مُسْتَقِيمٌ إِنَّ عِبَادِي لَيْسَ لَكَ عَلَيْهِمْ سُلْطَانٌ إِلَّا مَنِ اتَّبَعَكَ مِنَ الْغَاوِينَ وَإِنَّ جَهَنَّمَ لَمَوْعِدُهُمْ أَجْمَعِينَ

***«Bu, mənə tərəf gələn doğru yoldur! Əslinə sənə uyan azğınlardana savayı, bəndələrimin üzərində sənin heç bir təsirin, heç bir hakimiyyətin yoxdur! Şübhəsiz ki, onların hamısının vədə yeri Cəhənnəmdir!»***[1]

وَأَنَّ هَٰذَا صِرَاطِي مُسْتَقِيمًا فَاتَّبِعُوهُ ۖ وَلَا تَتَّبِعُوا السُّبُلَ فَتَفَرَّقَ بِكُمْ عَنْ سَبِيلِهِ ۚ ذَٰلِكُمْ وَصَّاكُمْ بِهِ لَعَلَّكُمْ تَتَّقُونَ

***«Bu, şübhəsiz ki, Mənim doğru yolumdur. Onu tutub gedin. Sizi (Allahın) yolundan sapdıracaq yollara uymayın.***

[1] «Hicr» surəsi, ayə 41-43.

***(Allah) sizə bunları tövsiyə etdi ki, pis əməllərdən çəkinəsiniz!»***[1]

وَلَنْ تَجِدَ لِسُنَّتِ اللَّهِ تَحْوِيلًا

***«Sən Allahın qoyduğu qayda-qanunda heç bir dəyişiklik tapmazsan!»***[2]

Şəfaətin mümkün olması isə, feillərdə dəyişikliyə yol açar. Çünki şəfaət vasitəsi ilə bütün günahkarların bütün cəzalarını aradan qaldırmaq, zikr edilmiş ilahi sünnətin mümkünsüzlüyü anlamını daşıyır və qeyd etdiyimiz ilahi işlərin zəruriyyəti ilə ziddiyyətlidir. Bu isə qətiyyən mümkün deyildir, uca Allahın feillərinin hikmət üzündən olmasıyla həmhəng olmaz. Bəzi günahkarların cəzalarını aradan qaldırmaq və ya bütün günahkarların bəzi günahlarına bağışlamaq isə, uca Allahın feilinin fərqli olduğunu, mövcud olan qanunun və yolunu əks istiqamətə dəyişdirməsi deməkdir. Çünki günahkarlıqla günahkarlar arasında bir fərq olmağı kimi, günah etməklə bəndəçiliyin hüdudlarını aşmaq baxımından da günahlar arasında bir fərq yoxdur. Bu halda günahkarların bir qismini və ya onların bəzi günahlarını ümumilikdən ayrı olaraq şəfaət vasitəçiliyi ilə xoş görünən və ya görünməyənlər əhatəsinə almaq qeyri-mümkündür. Şəfaət və oxşar vasitəçiliklər, ancaq işlərin haqq və batildə, eyni hökmü verə bilən, hikmət və cəhalətdə eyni cəhətdə vəziyyət ala bilən maneə və şübhələr xüsusunda bina edildilmiş dünya həyatında realaşa bilər.

**Cavab:** Uca Allahın yolunun istiqaməti və qanunlar sisteminin tək və dəyişməz olduğu şübhəsidir. Bu əvəzsiz qanunlar sistemi, uca Allahın məsələn, qanunqoyma və

---

[1] «Ənam» surəsi, ayə 153.
[2] «Fatir» surəsi, ayə 43.

hökmetmə kimi sifətlərindən birinə şamil deyil ki, bir xüsusla əlaqəli hökm dəyişməsin və bir hökmdən irəli gələn cəza, heç bir şəkildə qüvvədən düşməsin. Əksinə, ilahi qanunlar sistemi uca Allahın bunlarla əlaqəli bütün sifətlərinin ön gördükləri xüsuslar üzərinə bina edilmişdir ki, Onun sifətləri bizim qavrayışımızdan çox ucadır.

Bunun izahı belədir: Varlıqlar aləmində həyat, ölüm, ruzi və nemətlər bəxş və lütf edən uca Allahdır. Bunlarsa, bir-birlərindən fərqli məsələrdir və uca Allahla olan bağlantılar eyni şəkildə, eyni yöndə və eyni vasitə ilə deyildir. Bu cür bir əlaqə tərzində bağlılıq, səbəbiyyət qanunu ilə mövcuddur. Məsələn, uca Allah lazım olan bir səbəb və ehtiyac duyulan bir xəstəyə məsləhət olmadan şəfa verməz. Xəstəyə şəfa verməsi Onun öldürücü, intiqamalıcı və şiddətli cəzalandırıcı olan sifətləriylə deyil, şəfqətli, mərhəmətli, nemət bəxşedən, şəfa verən və səadətə qovuşduran sifətləriylə əlaqəlidir.

Uca Allah, şəfqətli və mərhəmətli olduğu üçün səbəbsiz olaraq bir hökmranı, bir müstəkbiri *(zalım hakim)* həlak etməz. Əksinə, intiqamalıcı, şiddətlə cəzalandırıcı və müqayisə olunmaz gücüylə əzabverici olduğu üçün həlak edər. Qisası desək, gördüyü hər iş onunla əlaqəli bir sifətin istəyidir. Quran bu həqiqəti tam əsaslarıyla bildirir.

Bu halda meydana gələn hər hansı bir varlıq, yaradılış baxımından əhatə etdiyi xüsusiyyətləri, aralarındakı nizam və intizam əmələ gətirən vəch (dəlil) ilə bir çox ilahi sifətə söykənir. Belə də demək olar ki, hər şeyin əhatəsində olduğu gözəl xüsusiyyətlər, uca Allaha bağlıdır.

Bu həqiqəti qavradıqdan sonra bu mövzunu mükəmməl şəkildə öyrənmək olar. Uca Allahın yolunun doğruluğu, qanununun dəyişməzliyi və işlərinin ziddiyyətli olmaması, bir-birləriylə bağlılıq halında olan bütün sifətlərinin həmahəngliyi

sistemi mövcuddur. Yoxsa, bir sifətin meydana gətirdiyi nəticə üçün bu vəziyyət məqbul deyildir. Belə də demək olar: Bu cür bir vəziyyət hökmlə, hökmün mövzusuna əlaqəli olan bir funksiyanın əmələ gətirdiyi nəticə üçün deyil, bütün funksiyalar arasındakı təsirlənmədən qaynaqlanan nəticə üçün məqbuldur. Əgər bəhs olunan hökmün səbəbi təkbaşına mövcud olsaydı, bu hökm nə əməlisaleh, nə günahkar, nə mömin və nə də kafir üçün dəyişməzdi. Lakin səbəblər çoxdur. Bunların hamısı və ya bir qisminin bir yerdə göz önündə canlandırmasıyla doğacaq nəticə, hər birinin təkbaşına düşüncəsindən doğacaq nəticəylə fərqli ola bilər. Nə demək istədiyimizi yaxşı düşünün.

Buna görə də, şəfaətin varlığı və cəzanın aradan qaldırılması rəhmət, bağışlama, hökmetmə, qərar və hər haqq sahibinə haqqını vermə və qərarda doğru ilə səhvi ayırmaq kimi bir qrup səbəblərin doğurduğu nəticə, qüvvədə olan ilahi qanunlar sistemində bir dəyişikliyə və doğru yoldan azmağa yol açmaz.

**Üçüncü irad:** Şəfaət, ümumən bizə məlum olduğu kimi, şəfaətçinin hüzurunda şəfaətə ehtiyaclı olan fərdi, daha əvvəl iradə etdiyinin istər iradəsi istiqamətində hökmdə olsun istər olmasın, əksi olan bir şeyi etməyə və ya tərk etməyə məcbur etməsidir. Buna görə, şəfaətçinin istəyi istiqamətində iradə etdiyi hökm qüvvədən düşmədikdə, şəfaət reallaşmaz. Bu halda, şəfaət edən kəs ya adildir, ya da zalım.

Adil bir hakim iradə və ya hökm etdiyi xüsusla əlaqəli mövcud olan fikrini dəyişmədiyi müddətdə, şəfaət təşəbbüsünü qəbul etməz. Yəni, ancaq yanılması, sonradan doğrunu öyrənməsi və bildirdiyi mövqedən və ya hökm etdiyindən fərqli olduğunu görməsi kimi bir vəziyyət mövcud olarsa, şəfaət təşəbbüsünü qəbul edər.

Zalım bir hakim isə, haqsızlıq etdiyini və ədalətə uyğun olan halın əksi olduğunu çox yaxşı bildiyi halda, yaxın adamları və elit zümrənin şəfaətini qəbul edər. Öz səviyyəsində bir olan şəxslə münasibətlərini qorumaq naminə ədaləti buraxıb, şəxsi mənfəət seçər. Mövcud olan hər iki vəziyyət, uca Allah tərəfindən imkansızdır. Çünki Onun iradəsi elminə görə təcəlli edər, elmi isə əzəlidir, şübhəsiz, dəyişməz.

Şəfaəti inkar edənlərin nəzərinə verəcəyimiz cavab budur: Şəfaət hadisəsində uca Allah tərəfindən bir iradə və məlumat dəyişikliyi mümkün deyildir. Dəyişiklik, iradə edilən və bilinən şey baxımından mümkündür. Çünki uca Allah, insanın başına müxtəlif vəziyyətlərin gələcəyini, səbəblərini və nə zamanda bu vəziyyətdə olacağını bilir. Belə bir vəziyyətdə onun *(fərdin)* haqqında bir iradə ortaya qoyar. Sonra hansı səbəblərdən başqa hadisələrin baş verməsi ilə digər bir zamanda başqa bir vəziyyətə düşəcəyini də bilir. Bu dəfə də, onun haqqında başqa bir iradə ortaya qoyar. O, hər gün yeni bir fəaliyyətdədir. Bu səbəbdən uca Allah belə buyurur:

يَمْحُو اللَّهُ مَا يَشَاءُ وَيُثْبِتُ ۖ وَعِنْدَهُ أُمُّ الْكِتَابِ

***«Allah istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar. Kitabın əsli (lövhi-məhfuz) Onun yanındadır».***[1]

بَلْ يَدَاهُ مَبْسُوطَتَانِ يُنْفِقُ كَيْفَ يَشَاءُ

***«Xeyr, Allahın əlləri açıqdır, istədiyi kimi lütf (və ehsan) edər».***[2]

Bu şəkildə sizə bir misal gətirə bilərik: Biz bilirik ki, səmanı bir müddət sonra qaranlıq bürüyəcək və gözlərimiz

---

[1] «Rəd» surəsi, ayə 39.
[2] «Maidə» surəsi, ayə 64.

funksiyasını yerinə yetirə bilməyəcəkdir. Halbuki, buna ehtiyacımız vardır. Sonra günəşin işıq saçması ilə qaranlıq aradan gedəcəkdir. Bu məsələdə gecənin gəlişi iradəmizi bir çırağın vasitəşiliyi ilə aydınlığa, gecənin sona yetməsi ilə çırağı söndürməyə təallluq [1] edər. Burada məlumat və iradə dəyişməmişdir. Sadəcə, məlum olan və iradə edilən şey, dəyişmişdir. Yenə məlum olan və iradə edilən şey, məlumat və iradəyə uyğun olanın mövqeyindən çıxmışdır. Çünki hər məlumat, hər məlum olana uyğun olmaz. Hər iradə də hər iradə edilən şeyə təalluq etməz.

Bəli, uca Allaha görə imkansız olan məlumat və iradə dəyişikliyi, bilinən və iradə edilən şeyin vəziyyətini qorumasına baxmayaraq, məlumat və iradənin onlara uymamasıdır. Buna yanılma və fəsh etmə deyilir. Məsələn, bir qaraltı görürsən. Öncə bunun insan olduğuna hökm edərsən. Bir qədər sonra qaraltının at olduğu ortaya çıxır. Beləcə, qaraltıya əlaqəli məlumat dəyişir. Ya da nəzərində, bir əməlin müqabilində bir şeyə iradə edirsən. Sonradan iradə etdiyin şeyin, həqiqətdə olduğunun əksinə olduğunu öyrənirsən. Bununla bağlı olaraq da, iradəni dəyişdirirsən. Məlum olur ki, bu iki məsələdə vurğuladığımız xüsuslar, uca Allah haqqında düşünülə bilməz.

Bununla da, şəfaət və ona bağlı olaraq cəzanın qüvvədən düşməsi hadisəsində, yuxarıda deyilən xüsusların mövcud olmadığını öyrəndin.

**Dördüncü irad:** Uca Allahın şəfaəti vəd etməsi və ya peyğəmbərlərin bunu elan etmələri, insanların günah işləri davam etmələri və Allahın qoyduğu haramlara əhəmiyyət verməmələri istiqamətinə təşviq edilmələri nəticəsini doğurur.

---

[1] Yəni əqlimiz çırağı söndürməyə hökm edər.

Bu isə, dinin hədəfi ilə ziddiyyətlidir! Dinin tək və dəyişməz məqsədi, insanların tək və şəriksiz Allaha qulluq və itaət etməyə yönəldilmələridir. Bu halda Kitab və sünnətdə şəfaətlə əlaqəli olaraq yer alan rəvayətləri, dinin təməl düsturu ilə ziddiyyətli şəkildə təfsir etmək olmaz. Bu işdən çəkinmək lazımdır.

**Cavab:** Əvvəlcə deyim ki, şəfaətə bu cür yanaşma tərzi, bağışlamanın əhatəsi və rəhmətin genişliyini göstərən ayələrlə ziddiyyətlidir:

إِنَّ اللَّهَ لَا يَغْفِرُ أَنْ يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَنْ يَشَاءُ

***«Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar».***[1]

Daha öncə də dediyimiz kimi, bu ayə tövbənin mümkün olmadığı hallara işarə edir. Bunun əlaməti də, tövbə edilmiş, olması halında bağışlanan günahlar əhatəsinə daxil olan şirkin, bu ayədə istisna edilmiş olmasıdır. Əgər tövbəyə aid olsaydı, şirk ondan istisna edilməzdi. Çünki şirk tövbə etməklə bağışlanılır.[2]

İkincisi, uca Allah tərəfindən bəyan edilən şəfaət vədinin və ya bu vədin peyğəmbərlər vasitəsilə elan olunması müqabilində insanları günaha sürükləməsi və üsyankarlıq etməyə təşviq etməsi, iki şərtə bağlıdır:

1. Günahkarın şəxsi xüsusiyyətləri ilə əlaqələndirilməsi, ya da haqqında şəfaət edilən günahın heç bir şübhəyə yer buraxılmayacaq şəkildə zərərsizləşdirilməsi.

---

[1] «Nisa» surəsi, ayə 48.

[2] Yəni şirkdən tövbə etmək, tövhidə tərəf qayıtmaqdır. Bu da, keçmiş şirklərin bağışlanmasına səbəb olar.

Yəni bu şəxs və ya bu günah haqqında qəti olaraq şəfaət hökmünün verilməsi və heç bir möhtəməl şərtə bağlanmaması.

2. Şəfaətin hər cür cəzanın bütün zamanlarda təməldən qüvvədən düşməsi üçün təsirli bir rol oynaması.

Əgər «filan qrupdan olan insanlar və ya bütün insanlar etdikləri günahlara görə cəzalandırılmazlar, günahlarına görə sorğu-sual olunmazlar» və ya «filan günaha görə, heç bir zaman əzab verilməz» şəkilində bir iddia ortaya atılarsa, bu batil iddia, məsuliyyətsizliyə yönəldən bir hökmdür. Lakin əgər hər iki şərt baxımından mövzu qaranlıq qalarsa, şəfaətin hansı günah və ya hansı günahkarlar haqqında reallaşacağı bildirilməzsə, ya da qüvvədən düşəcək və bütün cəzaların, hər zaman və hansı halda olcağı şəklində bir iddia ortaya qoyulmazsa, insan vəd edilən şəfaətin əhatəsinə daxil olub-olmayacağını bilməz. Buna görə də, uca Allahın qoyduğu qadağaları pozmağa cəsarət etməz. Əksinə, bu vəziyyət insanda ilahi rəhmətə yönəlmiş bir duyğu meydana gətirər, etdiyi günah və pisliklərə görə ümidsizliyə və uca Allahın rəhməti haqqında bədbinliyə qapılmaz.

Məgər uca Allah belə buyurmurmu?:

إِنْ تَجْتَنِبُوا كَبَائِرَ مَا تُنْهَوْنَ عَنْهُ نُكَفِّرْ عَنْكُمْ سَيِّئَاتِكُمْ وَنُدْخِلْكُمْ مُدْخَلًا كَرِيمًا

***«Əgər sizə qadağan olunmuş böyük günahlardan çəkinərsiniz, sizin kiçik günahlarınızı silər və sizi (şərəfli bir mənzilə) çatdırarıq».***[1]

Ayeyi-kərimə böyük günahlardan çəkinmək şərtinə bağlı olaraq, kiçik günahlar və günahlar üçün müəyyən olunmuş cəzaların qaldırılacağını ifadə edir. Əgər «Böyük günahlardan

---

[1] «Nisa» surəsi, ayə 31.

çəkinsəniz, kiçik günahlarınızı əfv edərik» demək doğrudursa, bu vəziyyətdə, «Əgər imanınızı qoruyub, qiyamət günündə sağlam bir imanla mənə tərəf gəlsəniz, şəfaətçilərin sizinlə əlaqəli şəfaətlərini qəbul edərəm» demək də doğru və yerində olar.

Bütün məsələ də, son nəticədə imanı qoruya bilməkdir. Çünki günahlar imanı zəiflədir, qəlbi daraldır və nəhayət, şirkə sürükləyir. Sözügedən mövzu aşağıdakı ayələrdə təsdiqlənir:

أَفَأَمِنُوا مَكْرَ اللَّهِ ۚ فَلَا يَأْمَنُ مَكْرَ اللَّهِ إِلَّا الْقَوْمُ الْخَاسِرُونَ

***«Yaxud Allahın onları dolaşdırıb bəla toruna salmayacağına əmin idilərmi? Allahın (bu yolla) dolaşdırıb bəla toruna salmayacağına özlərinə zərər eləyənlərdən başqa heç kəs arxayın ola bilməz!»***[1]

كَلَّا ۖ بَلْ ۜ رَانَ عَلَىٰ قُلُوبِهِمْ مَا كَانُوا يَكْسِبُونَ

***«Xeyr, əslində onların etdiyi əməllər qəlblərini paslandırmışdır».***[2]

ثُمَّ كَانَ عَاقِبَةَ الَّذِينَ أَسَاءُوا السُّوأَىٰ أَنْ كَذَّبُوا بِآيَاتِ اللَّهِ وَكَانُوا بِهَا يَسْتَهْزِئُونَ

***«Nəhayət, Allahın ayələrini yalan hesab edib onları məsxərəyə qoymaqla pislik edənlərin sonu çox pis oldu!»***[3]

Bu, xatırlatmalar günahlarından uzaqlaşdırmasını, təqva yolunu izləyib möhsinlərə yetişməsini təmin edər. Beləcə, bu anlamdakı şəfaətə ehtiyac duyulmaz. Bu, ən böyük fayda, ən gözəl nəticələrdən biridir.

---

[1] «Əraf» surəsi, ayə 99.
[2] «Muttəffifin» surəsi, ayə 14.
[3] «Rum» surəsi, ayə 10.

Eyni şəkildə, şəfaət olunan günahkar və ya şəfaətə aid mövzu olan günah bildirməklə, əzabın bəzi yönləri və ya müəyyən olacağını vurğulamaq, günahkarların cəsarətlənməsinə, günah və fəsada təşviq edilməsinə yol açmaz.

Qurani-Kərimdə qeyd olunur ki, şəfaətə aid ediləcək günahların günahları bildirməz. Cəzanın aradan qaldırılması isə, ancaq bəzi hallarda mümkün olar. Bu səbəbdən, bu məsələdə hər hansı bir problemlə qarşı-qarşıya deyilik.

**Beşinci irad:** Əgər əqli bir dəlil gətirməli olsaq, ancaq şəfaətin mümkünlüyünə dəlil olar, vücud tapmasına yox. Bununla bərabər, bu xüsusda əqli dəlil keçərsizdir.

Quran ayələrində şəfaətin vücuda gəlməsi ilə əlaqədər bir dəlil yoxdur. Əksinə, şəfaətin mümkünsüz olduğunu ifadə edən ayələrə rastlaşırıq:

يَوْمٌ لَا بَيْعٌ فِيهِ وَلَا خُلَّةٌ وَلَا شَفَاعَةٌ

***«Alış-verişin, dostluğun və şəfaətin mümkün olmayacağı gün...»***[1]

Digər bir ayədə şəfaətin heç bir fayda verməyəcəyi bildirilir:

فَمَا تَنْفَعُهُمْ شَفَاعَةُ الشَّافِعِينَ

***«Şəfaət edənlərin şəfaəti onlara fayda verməz!»***[2]

Mümkünsüz ifadə edən digər ayələr də bu şəkildədir:

إِلَّا بِإِذْنِهِ

---

[1] «Bəqərə» surəsi, ayə 254.

[2] «Müddəssir» surəsi, ayə 48.

***«Onun izni olması xaricində».***[1]

إِلَّا مِنْ بَعْدِ إِذْنِهِ

***«Ancaq Onun iznindan sonra...»***[2]

إِلَّا لِمَنِ ارْتَضَىٰ

***«Ancaq razı olduğu kimsə üçün...»***[3]

Bu cür istisnalar, yəni izn və iradəyə bağlı olaraq irəli sürülən istisnalar, Qurani-Kərimdə bir çox yerdə mövcuddur; Quranın ifadə tərzi üçün qəti mümkünsüzlük ifadə edirlər. Hədəf, bunun uca Allahın izninə və iradəsinə bağlı olduğunu vurğulamaqdır. Çünki uca Allah belə buyurur:

سَنُقْرِئُكَ فَلَا تَنْسَىٰ إِلَّا مَا شَاءَ اللَّهُ ۚ إِنَّهُ يَعْلَمُ الْجَهْرَ وَمَا يَخْفَىٰ

***«Biz sənə (Quranı) oxudacağıq və sən (onu) unutmayacaqsan; Yalnız Allahın dilədiyindən (hökmünü ləğv etdiyimiz bu və ya digər ayədən) başqa! Şübhəsiz ki, O, aşkarı da, gizlini də bilir!»***[4]

خَالِدِينَ فِيهَا مَا دَامَتِ السَّمَاوَاتُ وَالْأَرْضُ إِلَّا مَا شَاءَ رَبُّكَ

***«Rəbbinin istədiyindən başqa, göylər və yer durduqca orada əbədi qalacaqlar».***[5]

Bu səbəbdən Qurani-Kərimdə şəfaətin qətiyyətlə reallaşacağı ilə əlaqədər açıq bir dəlil yoxdur.

Hədislərə nəzər saldıqda isə, mövzunun incəliyini bildirən rəvayətlərin səhihliyi mübahisəlidir, onlara etibar etmək olmaz.

---

[1] «Bəqərə» surəsi, ayə 255.
[2] «Yunus» surəsi, ayə 3.
[3] «Ənbiya» surəsi, ayə 28.
[4] «Əla» surəsi, ayə 6-7.
[5] «Hud» surəsi, ayə 107.

Hədislər arasında səhihliyi mübahisəli olmayanlarsa, Qurani-Kərimin bu mövzuya aid ifadəsinə bir açıqlama vermirlər.

**Cavab:** Şəfaətin mümkünsüzlüyünü ifadə edən ayələrin, sözü gedən mövzunu bütünlüklə inkar etmədiklərini gördük. Əksinə, bu ayələrdə Allahın izni və rizasından kənar şəfaət inkar edilir.

Bu kitabın müəllifinin nəzərinə görə, şəfaət bir fayda verməyəcəyini ifadə edən ayələr onu mümkünsüz etmir. Əksinə, onun qətiyyətlə gerçəkləşəcəyini ortaya qoyur. «Müddəssir» surəsindəki bu ayələr, şəfaətin günahkarlardan olan bəlli bir zümrəyə fayda verməyəcəyini ifadə edir və bütün günahkarlara aid edilmir.

Bu ayələrdə ifadə edilən şəfaət, son nəticə olaraq (hər hansı bir qeyd və şərtdən) mücərrəd və boş deyildir. Çünki «Fəla tənfəuhuş-şəfaətu; yəni şəfaət onlara fayda verməz» deməklə, «Fəla tənfəuhum şəfaətuş-şafiin; yəni şəfaətçilərin şəfaəti onlara fayda verməz» demək arasında fərq vardır. Birinci ifadədə feilin qarşıda realaşacağına dair hər hansı bir işarə olmamasının əksinə olaraq, ikinci ifadədə feilin qarşısında reallaşacağı qeyd olunur. Şeyx Əbdulqahir «Dalaliul-İcaz» adlı əsərində bunun açıq-aydın ifadə etmişdir: «Şəfaətçilərin şəfaəti» ifadəsi, şəfaətin bir şəkildə həqiqiləşdiyini, lakin sözügedən zümrələrin bundan faydalana bilməyəcəkləri göstərir».

Ayrıca, «şəfaətçilər» şəklində qeyd olunan bir çox ifadənin olması da, bu nəzərin qüvvətləndirici xüsusiyyətidir. Eynilə bu ifadələr kimi: «Amma geridə qalanlardan oldu», «O kafirlərdəndir», «O azğınlardan idi», «Mənim vədim zalımlara yetişməz».

Əks təqdirdə, eyni bir varlığın ifadə tərzi bir anlam daşıdıqda, bir çox kəlmələr istifadə olunması, ifadə tərzi

baxımından lazımsız olardı. Bu halda «şəfaətçilərin şəfaəti onlara fayda verməz» ayəsi, şəfaəti inkar edən ayələrdən deyil, dəlilləndirən ayələrdəndir.

İzn və riza istisnasını əhatə edən ayələrə gəlincə, «illa bi-iznihi=ancaq Onun izniylə» və «illa min bədi iznihi=ancaq Onun iznindən sonra» ifadələri, şəfaətin həqiqiləşəcəyini ortaya qoyur. İfadə tərzlərini və dilin qrammatik qaydalarını bilənlər, bu həqiqəti inkar etməzlər. Eyni şəkildə, «Ancaq Onun izniylə» və «Ancaq Onun razı olduğu kimsə üçün» ifadələrinin eyni mənaya, yəni ilahi iradəyə yönəlmiş olan bu kəlama da diqqət yetirmək lazımdır.

Qaldı ki, şəfaətlə əlaqəli istisna, müxtəlif şəkillərdə qarşıya çıxmışdır: «Ancaq Onun izniylə», «Ancaq Onun iznindən sonra», «Ancaq razı olduğu kimsələr üçün», «Ancaq bilərək haqqa şahidlik edənlər üçün».

Əgər izn və rizanın eyni mənada olduğu, yəni «iradə» anlamını ifadə etdiyini qəbul etsək, eyni şeyi uca Allahın bu kəlamı - **«Ancaq bilərək haqqa şahidlik edənlər istisnadır»** üçün də söyləyə bilərikmi? Bu istisna ilə, iradəyə əlaqədar istisnanın nəzərə tutduğu söylənilə bilərmi? Belə bir mətləb adi insan kütləsinin tərzi-təfəkküründən uzaq olduğu halda, söz sənətinin parlaq örnəklərindən biri, daha doğrusu, ən parlaq örnəyi olan Quran haqqında necə, düşünə bilərik?

Sünnətə gəlincə, bu mövzuda Quranın ifadə etdiyindən başqa bir şey ifadə etmədiyini yeri gəldikdə açıqlayacağıq.

**Altıncı irad:** Qiyamət günü günahın aydınlaşmasından və cəzanın məcburi hala gəlməsindən sonra günahkarların cəzalarının üzərlərindən götürüləcəyi, xüsusu ayələrdə açıq-aydın şəkildə buyrulmur. Bu ayələrdə nəzərdə tutulan şey, peyğəmbərlərin peyğəmbər olmalarıyla insanlarla Rəbbləri arasında vasitəçilik edərək, vəhy yolu ilə hökmləri alıb

insanlara bildirmələri və onlara doğru yolu göstərmələridir. Bu vəziyyət eynən torpağa atılan bir toxuma bənzər; bu toxum yetişər, gələcəkdə o kökdən bitənlər uyğun bir mühit ortaya çıxarar. Peyğəmbərlər də həm dünya və həm də axirətdə möminlərin bu anlamda şəfaətçiləridirlər.

Bu nəzəri belə cavablandıra bilərik: Bunun bir növ şəfaət olduğuna söz yoxdur. Əvvəldə də deyildiyi kimi, şəfaət məfhumu sırf bununla hüdudlanmır. Uca Alllahın buyurduğu da bu dediklərimizə bir dəlildir:

إِنَّ اللَّهَ لَا يَغْفِرُ أَنْ يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَنْ يَشَاءُ ۚ وَمَنْ يُشْرِكْ بِاللَّهِ فَقَدِ افْتَرَىٰ إِثْمًا عَظِيمًا

***«Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar».***[1]

Daha əvvəldə bu ayənin iman və tövbə ilə əlaqəli olmadığını aşılamışdıq. Peyğəmbərlərin ixtiyarına verilən şəfaət isə, ancaq iman və tövbəyə dəvət yolu ilə reallaşa bilər.

**Yeddinci irad:** Əqli dəlillər vasitəsi ilə şəfaətin realaşmasını müəyyən etmək mümkün deyildir. Qurani-Kərimdə şəfaətlə əlaqəli ayələr isə, mütaşabih[2] ayələrdir. Bu ayələrin bəzisinidə şəfaətin mümkünlüyü bildirilərkən, bəzisində inkar edilir. Bəzən hüdudlandırılır, bəzən də hüdudsuz tutulur. Dinin zəruri bildiyi ədəb qaydası, bunlara inanmağımızı və uca Allahın elminə həvalə etməyimizi vacib bilir.

---

[1] «Nisa» surəsi, ayə 48.
[2] Bir neçə müxtəlif mənaya yozula bilən.

Bu iradı belə cavablandıra bilərik: Mütəşabih ayələr, möhkəm[1] ayələrə çevrilərək, möhkəm olurlar. Bu da bizim üçün həm mümkün, həm də caizdir. Bu xüsusa ***«Sənə kitabı (Quranı) nazil edən Odur».*** Onun bir qismi «möhkəm» ayələrdir *(bunlar kitabın anasıdır)*. Digər bir qismi isə, «mütaşabih»dir[2] ayəsində aydınlıq gətirilmişdir.

## ŞƏFAƏT EDİLƏN VƏ EDƏN ŞƏXSLƏR

### Kimlər üçün şəfaət ediləcək?

Qiyamət günü şəfaət ediləcək şəxslərin bildirilməsinin dini anlayış və ədəb qaydası ilə uyğun olmadığını, lakin ümumilikdə qaranlıq pərdə arxasında olanı, qavramağın bir ölçüdə məlum olmasında bir maneə olmadığını daha əvvəl qeyd etmişdik. Quranın ifadə tərzi məsələni bu şəkildə ortaya qoyur. Uca Alllahın belə buyurur:

كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ رَهِينَةٌ إِلَّا أَصْحَابَ الْيَمِينِ فِي جَنَّاتٍ يَتَسَاءَلُونَ عَنِ الْمُجْرِمِينَ مَا سَلَكَكُمْ فِي سَقَرَ قَالُوا لَمْ نَكُ مِنَ الْمُصَلِّينَ وَلَمْ نَكُ نُطْعِمُ الْمِسْكِينَ وَكُنَّا نَخُوضُ مَعَ الْخَائِضِينَ وَكُنَّا نُكَذِّبُ بِيَوْمِ الدِّينِ حَتَّىٰ أَتَانَا الْيَقِينُفَمَا تَنْفَعُهُمْ شَفَاعَةُ الشَّافِعِينَ

***«Hər kəs öz əməlinin girovudur! Sağ tərəf sahibləri istisna olmaqla! Onlar cənnətlərdədirlər; bir-birindən soruşacaqlar; Günahkarlar barəsində: «Sizi Səqərə (Cəhənnəmə) salan nədir?» Onlar deyəcəklər: «Biz namaz qılanlardan deyildik; Yoxsulu da yedirtməzdik; Batilə dalanlarla birlikdə biz də dalardıq; Haqq-hesab gününü***

---

[1] Aydın və hökmü bəlli.

[2] «Ali-İmran» surəsi, ayə 7.

***yalan sayardıq. Ölüm bizi haqlayana qədər (bu vəziyyətdə qaldıq)». Şəfaət edənlərin şəfaəti onlara fayda verməz!»***[1]

Burada uca Allah qiyamət günü hər nəfsin qazandığı günahların girovu olduğunu, keçmişdə etdiyi xətalara görə sorğu-sual olunacağını, lakin Əshabi-yəminin bu mühakimənin xaricində qalacağını, girovluqdan qurtulub sərbəst buraxılacağını və cənnətlərdə yer alacağını bildirir. Ardınca onlarla, əməllərin girovu olanlar və yandırıcı od içində sorğu-sual olunan günahkarlar arasında bir pərdə olmadığını dilə gətirir. Əshabi-yəmin günahkarlardan yandırıcı oda nə səbəbdən düşdüklərini soruşar. Onlar da, özlərini atəş sürükləyən bəzi sifətlərinə işarə edərək, verilən sualı cavablandırarlar. Bu səbəbdən qeyd olunan sifətlərin sadalanmasının ardınca, şəfaətçilərin şəfaətlərinin onlara bir fayda verməyəcəyinin təfərruatı qeyd olunur.

Quranın ifadə tərzində belə anlaşılır ki, Əshabi-yəminin malik olduğu sifətlərə sahib olmamaq, şəfatin əhatəsinə daxil olmağa mane olur. Saleh əməllərə və gözəl əxlaqi sifətlərə sahib olmadıqları üçün şəfaətdən kənar edilən və yandırıcı əzaba sürüklənən günahkarlarla müqayisədə, uca Allah saleh əməl sahiblərini, günahlarının girovu olmaqdan və əməllərinə görə sorğuya çəkilməkdən qurtarmışdır. Bu qurtuluş ancaq şəfaətlə olur. Bu halda şəfaət edilən insanlar Əshabi-yəmindir. Müqəddəs ayələrdə Əshabi-yəmin olan kimsələr mənfi xüsusiyyətlərə sahib olmayanlar kimi tanıdılırlar. Belə ki, bu ayələr «Müddəssir» surəsində mövcuddur. Ayələrin mətnindən də anlaşıldığı kimi, bu surə Məkkədə nazil olan surələrdəndir. O illərdə isə, bu günki şəkildə namaz və zəkat ibadətləri bildirilməmişdi. Bu halda, ***«Biz namaz qılanlardan deyilik»***

---

[1] «Müdəssir» surəsi, ayə 38-48.

ifadəsindəki «namaz»dan məqsəd, bəndə olaraq boyun əyib, Allaha yönəlməkdir. Yoxsulları doydurmaqla da, ümumi anlamda Allah yolunda möhtaclara infaq etmə, maddi yardım göstərmə nəzərdə tutulmuşdur. Bu iki məzmunda, İslam şəriətində bu gün mövcud olan namaz və zəkat kimi ibadətlər nəzərdə tutulmamışdır. Dünyaya bağlılıq isə, həyatın ötəri əyləncələri və dünyanın cəzbedici zinətlərinə qapılmaqdır ki, bunlar, insanı axirətə yönəlməkdən, hesab günü haqqında düşünməkdən uzaqlaşdırır. Bu isə axirəti xatırladan, müjdələyici və tənbehedici ayələrə tam anlamıyla əks çıxmaqdır. Sözügedən dünya meyilli xüsusiyyətlər, yəni Allaha tərəf yönəlməyi və Onun yolunda mal və pul xərcləməyi tərk etmək, boş və faydasız şeylərə aludə olmaq və cəza gününü inkar etmək insanda reallaşdıqda, artıq onun vücudunda dinin təməlləri çökmüş, həmçinin, bunların müqabilində də dinin təməlləri möhkəmlənmiş olur. Çünki din, dünyaya bağlılıqdan əl çəkib, axirətə yönəlmək istiqamətində pak hidayət rəhbərlərinə itaətdir. Bu da, boş şeylərə olan aludəçiliyi tərk etmək və cəza gününü təsdiq etməkdən ibarətdir. Bu ikisi də, bəndəlik məqsədi daşıyan davranışlarla Allaha yönəlmək və cəmiyyətin ehtiyaclarını ödəmək üçün çalışmağı lazım bilir. Bunları rəmzləşdirənsə, namaz və Allah yolunda infaqdır. Bu halda din, elm və əməl baxımından bu dörd təməl ünsürə dayanır. Tövhid və nübuvvətə inanmaq kimi dinin digər təməl ünsürləri, bu dörd əsasın təbii olaraq doğurduğu şeylərdir. Bu xüsusa yaxşıca diqqət edin və üzərində düşünün.

Buna görə də, şəfaət sayəsində qurtuluşa yetişənlər, Əshabi-yəmindir. Bunlar, əməlləri qəbul olmuş və ya olmamış olsun, şəfaətə möhtac olsunlar və ya olmasınlar, din və inanc baxımından bəyənilən kimsələrdirlər. Şəfaət bunlar üçün təyin

olunmuşdur. Bu səbəbdən də, şəfaət Əshabi-yəmindən olan günahkarlar üçündür.

إِنْ تَجْتَنِبُوا كَبَائِرَ مَا تُنْهَوْنَ عَنْهُ نُكَفِّرْ عَنْكُمْ سَيِّئَاتِكُمْ وَنُدْخِلْكُمْ مُدْخَلًا كَرِيمًا

***«Əgər sizə qadağan olunmuş böyük günahlardan çəkinərsiniz, sizin kiçik günahlarınızı silər və sizi (şərəfli bir mənzilə) çatdırarıq».***[1] ayeyi-kərimin bildirdiyi budur ki, kimin qiymət gününə qədər əfv edilməyən bir günahı qalmışsa, o, aşkarcasına böyük günah edən kimsələrdəndir. Əgər günah kiçik günahlardan olsaydı, heç şübhəsiz, nəzərə alınmazdı.

Bu izahlarımızla bu nəticəyə gəlirik ki, şəfaət, Əshabi-yəmindən olan və böyük günah edən kimsələr üçün müəyyən edilmişdir. Çünki Həzrət Peyğəmbərimiz (s) belə buyurmuşdur: «Mənim şəfaətim ümmətimdən böyük günah edən kimsələr üçündür. Möhsinlərə gəlincə, onlar üçün bir maneə yoxdur».

Başqa bir tərəfdən, bunların Əshabi-yəmin olaraq xüsusiyyətləndirilmələri, əshabi-şimal [2] olaraq xüsusiyyətləndirilən zümrəyə qarşılıqdır. Bəzən «əshabi-məymənə» və «əshabi-məşəmə» olaraq da xüsusiyyətləndirilirlər. Bunlar Qurani-Kərimin, qiyamət günü əməl dəftəri sağdan və ya sol tərəfdən verilməsini əsas alaraq istifadə olunan mövzularıdır. Uca Allah belə buyurur:

يَوْمَ نَدْعُو كُلَّ أُنَاسٍ بِإِمَامِهِمْ ۖ فَمَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ فَأُولَٰئِكَ يَقْرَءُونَ كِتَابَهُمْ وَلَا يُظْلَمُونَ فَتِيلًا وَمَنْ كَانَ فِي هَٰذِهِ أَعْمَىٰ فَهُوَ فِي الْآخِرَةِ أَعْمَىٰ وَأَضَلُّ سَبِيلًا

***«Bütün insanları öz imamları (rəhbər) ilə çağırdığımız gün, kitabı (nameyi-əməli) sağ əlinə verilən kimsələr,***

[1] «Nisa» surəsi, ayə 31.
[2] Əməl dəftərləri sol əlinə verilənlər.

***kitablarını (sevincək) oxuyarlar. Onlara tük zərrə qədər bir haqsızlıq edilməz. Bu dünyada kor olan kimsə (haqqı tanımayan), axirətdə də kor olar. Bu kəslər daha çox azgəndır!»***[1]

«Nameyi-əməlin sağ tərəfindən verilməsi» ifadəsi haqq imama bağlı olmaq, «nameyi-əməlin sol tərəfindən verilməsi» ifadəsi də azğınlıq rəhbərinə tabe olmaq anlamındadır. Bu səbəbdən uca Allah, Firon ilə əlaqəli olaraq belə buyurur:

يَقْدُمُ قَوْمَهُ يَوْمَ الْقِيَامَةِ فَأَوْرَدَهُمُ النَّارَ ۖ وَبِئْسَ الْوِرْدُ الْمَوْرُودُ

***«Qiyamət günü camaatının qabağında gedib onları atəşə (Cəhənnəmə) aparacaq; Onların düşəcəkləri yer necə də pisdir!»***[2]

Qısaca desək, Əshabi-yəminin sahib olduğu xüsusiyyətlərin özü, dinin əsaslarını qəbul etməkdir. Bu səbəbdən yuxarıda bəhs etdiyimiz dörd cəhətin əsas nöqtəsi budur. Bu xüsusa yaxşı diqqət etməlisən.

Başqa bir yerdə uca Allah belə buyurur:

وَلَا يَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضَىٰ

***«Allahın razı olduğundan başqasına şəfaət etməzlər».***[3]

Bu ayeyi-kərimdə Allahın razı olduğu kimsələr haqqında şəfaət ediləcəyi qəti şəkildə bildirilmişdir

يَوْمَئِذٍ لَا تَنْفَعُ الشَّفَاعَةُ إِلَّا مَنْ أَذِنَ لَهُ الرَّحْمَٰنُ وَرَضِيَ لَهُ قَوْلًا

***«O gün Rəhmanın izin verib sözündən razı olduğu kəmsədən başqasının şəfaəti fayda verməz!»***[4] ayəsində isə,

---

[1] «İsra» surəsi, ayə 71-72.
[2] «Hud» surəsi, ayə 98.
[3] «Ənbiya» surəsi, ayə 28.
[4] «Taha» surəsi, ayə 109.

əksinə, burada «razı olma» feilinin bir əməl və ya başqa bir şeylə bağlı olaraq buyrulmamasından anlaşılır ki, məqsəd, uca Allahın onlardan razı olması, yəni onların əməllərindən deyil, dinlərinə bağlılığından razı olmasıdır. Buna görə də, bu ayəyi-kərim də nəticə və ifadə baxımından əvvəlki ayələrlə eyni nöqtəyə yönəlmişdir.

Uca Allah başqa bir ayədə də belə buyurur:

يَوْمَ نَحْشُرُ الْمُتَّقِينَ إِلَى الرَّحْمَٰنِ وَفْدًا وَنَسُوقُ الْمُجْرِمِينَ إِلَىٰ جَهَنَّمَ وِرْدًا لَا يَمْلِكُونَ الشَّفَاعَةَ إِلَّا مَنِ اتَّخَذَ عِنْدَ الرَّحْمَٰنِ عَهْدًا

***«Bir gün gələr ki, təqvalılar Rəhmanın hüzuruna möhtərəm qonaq kimi toplamaqla, məşhur edərik. Günahkarları isə Cəhənnəmə susuz (heyvan kimi) sürərik. Rəhmanın hüzurunda əhd-peymanı olan kəmsədən başqa heç kim şəfaətə (şəfaət etməyə və ya şəfaət olunmağa) sahib olmaz».***[1]

Demək ki, uca Allahın dərgahında əhd-peymanı olanlar üçün şəfaət edilə bilər (Buradakı məsdər *(şəfaət)*, məchul feil anlamını ifadə edir. «La yəmlikunəş-şəfaətə», yəni «şəfaətə malik deyildirlər» mənasındadır). Çünki hər günahkar, cəhənnəmdə yanması qəti olan kafir deyildir. Bunun dəlili də, uca Allahın bu sözüdür:

إِنَّهُ مَنْ يَأْتِ رَبَّهُ مُجْرِمًا فَإِنَّ لَهُ جَهَنَّمَ لَا يَمُوتُ فِيهَا وَلَا يَحْيَىٰ وَمَنْ يَأْتِهِ مُؤْمِنًا قَدْ عَمِلَ الصَّالِحَاتِ فَأُولَٰئِكَ لَهُمُ الدَّرَجَاتُ الْعُلَىٰ

***«Həqiqətən, hər kəs Rəbbin hüzuruna günahkar kimi gələrsə, onun üçün cəhənnəm odu vardır. Orada nə ölüb, nə də (rahat) yaşayacaq. Hər kəs Rəbbinin hüzuruna iman***

---

[1] «Məryəm» surəsi, ayə 85-87.

***gətirib saleh əməllər etdiyi halda gələrsə, onun yüksək dərəcələr vardər».***[1]

Bəli, «saleh əməl edən mömin»in xaricində qalan günahkardır. Bu nöqtədə mömin olmaması ilə iman gətirib, saleh əməl edib-etməməsi arasında bir fərq yoxdur. Bu səbəbdən haqq din üzərində olub, lakin saleh əməl etməmiş günahkarlar da vardır. Beləcə, Allah dərgahında əhd-peymanı olanlar bunlardır. Uca Allahın bu sözü də dediklərimizə işarə edir:

أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَنْ لَا تَعْبُدُوا الشَّيْطَانَ ۖ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُبِينٌ وَأَنِ اعْبُدُونِي ۚ هَٰذَا صِرَاطٌ مُسْتَقِيمٌ

***«Ey Adəm övladı! Məgər Mən sizdən əhd almadımmı ki, Şeytana itaət etməyin, o sizin açıq-aşkar düşməninizdir. Mənə ibadət edin, doğru yol budur?!»***[2]

Bu halda, «mənə itaət edin» ifadəsi əmr, «doğru yol budur» ifadəsi isə əmrlərə bağlanmaq anlamına aiddir. Çünki bunun mənası belədir ki, şeytana itaəti tərk edin. Mənə bəndəlik doğru yoldur və bu yol sizi səadət və qurtuluşa çatdırar.

Elə isə sözügedən kimsələr, pis əməllərinə görə cəhənnəmdə olacaq möminlərdir. Sonra isə, şəfaət vasitəsilə bu əzabdan xilas olarlar. Uca Allahın bu sözündə də haqqında söhbət etdiyimiz mənaya bir işarə vardır:

وَقَالُوا لَنْ تَمَسَّنَا النَّارُ إِلَّا أَيَّامًا مَعْدُودَةً ۚ قُلْ أَتَّخَذْتُمْ عِنْدَ اللَّهِ عَهْدًا فَلَنْ يُخْلِفَ اللَّهُ عَهْدَهُ ۖ أَمْ تَقُولُونَ عَلَى اللَّهِ مَا لَا تَعْلَمُونَ

[1] «Taha» surəsi, ayə 74-75.
[2] «Yasin» surəsi, ayə 60-61.

***«Onlar deyərlər: «Cəhənnəm odu bizə bir neçə gündən artıq toxunmayacaqdır». (Ya Rəsulum!) De ki,: siz Allahdan bir əhd-peyman (söz) almışsınızmı? Allah heç vaxt Öz əhdindən dönməz, yoxsa bilmədiyiniz şeyi Allaha istinad edirsiniz?»*** [1] Bu ayələr də, yuxarıdakı ayələrdə vurğulanan məqsədə yönəlmişdir.

Buraya qədər sizə təqdim olunan ayələrin hamısı şəfaət olunanların, yeni qiymət günü şəfaət ediləcək kəslərin haqq dini mənimsəməklə bərabər, böyük günah edən kimsələr olduğunu əlamətləndirir. Onlar, Allahın dinini sevinclə qarşılayıb, xoşhal olan kəsdir.

## KİMLƏR ŞƏFAƏT EDƏCƏK

Daha əvvəl şəfaət təkvini və təşrii olaraq, iki qism olduğunu öyrəndiniz.

Təkvini şəfaət belə tanımaq mümkündür: Kainatda mövcud olan bütün səbəblər Allah dərgahında şəfaətçi məqamındadırlar. Çünki Allah ilə varlıqlar arasında vasitəçilk funksiyasını yerinə yetirirlər.

Təşrii şəfaət isə, məcburi olan cəza aləmində mövcuddur. Bu cür şəfaətin bir qismi, dünyada Allah tərəfindən bağışlanmağı, ona yaxınlaşmağı zəruri edən şeylərdir. Bu cür şeylər də, Allah ilə bəndələri arasında vasitəçilik edən şəfaətçilərdir. Bunlardan biri tövbədir. Uca Allah belə buyurur:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَىٰ أَنْفُسِهِمْ لَا تَقْنَطُوا مِنْ رَحْمَةِ اللَّهِ ۚ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا ۚ إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ وَأَنِيبُوا إِلَىٰ رَبِّكُمْ وَأَسْلِمُوا لَهُ مِنْ قَبْلِ أَنْ يَأْتِيَكُمُ الْعَذَابُ ثُمَّ لَا

---

[1] «Bəqərə» surəsi, ayə 80.

***«De: «Ey özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidinizi kəsməyin. Allah bütün günahları bağışlayar. Çünki O, çox bağışlayan, çox rəhm edəndir! Əzab sizə gəlməmişdən əvvəl Rəbbinizə tərəf dönün və Ona təslim olun ki, sonra sizə yardım olunmaz!»***[1] Şirk daxil olmaqla, bütün günahları əhatə edəcək şəkildə tövbənin təsir sahəsi geniş tutur.

Bu şəfaətçi də imandır. Allah-Təala belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَآمِنُوا بِرَسُولِهِ ... وَيَغْفِرْ لَكُمْ

***«Ey iman gətirənlər! Allahdan qorxun və Onun peyğəmbərinə iman gətirin ki, günahlarınız bağışlasın».***[2]

Bütün saleh əməllər də şəfaətçi məqamındadırlar:

وَعَدَ اللَّهُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ ۙ لَهُمْ مَغْفِرَةٌ وَأَجْرٌ عَظِيمٌ

***«Allah iman gətirib saleh əməllər edənlərə bəxşiş və böyük əcr vəd vermişdir: «Bağışlama və böyük mükafat onlardadır»***[3]

Bir digər ayədə də belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَابْتَغُوا إِلَيْهِ الْوَسِيلَةَ وَجَاهِدُوا فِي سَبِيلِهِ لَعَلَّكُمْ تُفْلِحُونَ

***«Ey iman gətirənlər! Allahdan qorxun, Ona yaxınlaşdıran vəsilələr axtarın. (Allah) yolunda cihad edin ki, nicat tapasınız!»***[4] Bu xüsusa işarə edən bir çox ayə vardır.

Qurani-Kərim də bir şəfaətçidir: Bu ayeyi-kərim dediklərimizə əyani sübutdur:

---

[1] «Zümər» surəsi, ayə 53-54.
[2] «Hədid» surəsi, ayə 28.
[3] «Maidə» surəsi, ayə 9.
[4] «Maidə» surəsi, ayə 35.

يَهْدِي بِهِ اللَّهُ مَنِ اتَّبَعَ رِضْوَانَهُ سُبُلَ السَّلَامِ وَيُخْرِجُهُمْ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ بِإِذْنِهِ وَيَهْدِيهِمْ إِلَىٰ صِرَاطٍ مُسْتَقِيمٍ

***«Allah Öz lütfünə sığınanları onunla (Peyğəmbər və Quran vasitəsilə) əmin-amanlıq (sülh) yollarına yönəldər, onları öz iznilə zülmətdən nura çıxarar və düz yola istiqamətləndirər!»***[1]

Saleh əməllə bağlılığı olan hər şey – məscidlər, mübarək məkanlar və müqəddəs günlər də şəfaətçi məqamındadırlar.

Nəbi və rəsullar da ümmətləri üçün bağəşlanma istərkən, bu müssiyanı yerinə yetirirlər. Uca Allahın bu kəlamı həmin istiqamətdə olan bəyan əhatə edir:

وَمَا أَرْسَلْنَا مِنْ رَسُولٍ إِلَّا لِيُطَاعَ بِإِذْنِ اللَّهِ ۚ وَلَوْ أَنَّهُمْ إِذْ ظَلَمُوا أَنْفُسَهُمْ جَاءُوكَ فَاسْتَغْفَرُوا اللَّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُوا اللَّهَ تَوَّابًا رَحِيمًا

***«Biz hər bir peyğəmbəri, ancaq ona Allahın izni ilə itaət olunsun deyə, göndərdik. Onlar (münafiqlər) özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər».***[2] Möminlər üçün bağışlanma diləyən mələklər də elə. Quyran-Kərimdə qarşılaşdığımız ayələr dediklərimizi bir daha təsdiq edir:

الَّذِينَ يَحْمِلُونَ الْعَرْشَ وَمَنْ حَوْلَهُ يُسَبِّحُونَ بِحَمْدِ رَبِّهِمْ وَيُؤْمِنُونَ بِهِ وَيَسْتَغْفِرُونَ لِلَّذِينَ آمَنُوا

---

[1] «Maidə» surəsi, ayə 16.
[2] «Nisa» surəsi, ayə 64.

***«Ərşi daşıyanlar və onun ətrafında olanlar (mələklər) öz Rəbbini həmd-səna ilə təqdis edir, Ona (qəlbən) inanır və möminlərin bağışlanmasını diləyərlər».***[1]

تَكَادُ السَّمَاوَاتُ يَتَفَطَّرْنَ مِنْ فَوْقِهِنَّ ۚ وَالْمَلَائِكَةُ يُسَبِّحُونَ بِحَمْدِ رَبِّهِمْ وَيَسْتَغْفِرُونَ لِمَنْ فِي الْأَرْضِ ۗ أَلَا إِنَّ اللَّهَ هُوَ الْغَفُورُ الرَّحِيمُ

***«Göylər (Allahın əzəmətindən, heybətindən) az qala bir-birinin üstündən çatlayıb dağılsın. Mələklər də Rəbbini həmd-səna ilə təqdis edər və yerdəkilərin (günahlarının) bağışlanmasını diləyərlər. Bilin ki, Allah, həqiqətən, bağışlayandır, rəhm edəndir!»***[2]

Özlərinə və mömin qardaşlarına bağışlanma diləyən möminlər də, şəfaətçilik funksiyasını daşıyırlar. Uca Allah onların bu dövranışını onların diliylə belə anladır:

وَاعْفُ عَنَّا وَاغْفِرْ لَنَا وَارْحَمْنَا ۚ أَنْتَ مَوْلَانَا فَانْصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ

***«Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən (mövlamızsan). Kafirlərə qələbə çalmaqda bizə kömək et!»***[3]

Təşrii şəfaətin bir qismi də, məlum anlamı ilə qiyamət günü reallaşacaq bir şəfaətdir.

Qiyamət günü şəfaət edənlərin başında peyğəmbərlər gələr. Uca Allah bunu bu şəkildə bildirir:

وَقَالُوا اتَّخَذَ الرَّحْمَٰنُ وَلَدًا ۗ سُبْحَانَهُ ۚ بَلْ عِبَادٌ مُكْرَمُونَ لَا يَسْبِقُونَهُ بِالْقَوْلِ وَهُمْ بِأَمْرِهِ يَعْمَلُونَ يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضَىٰ وَهُمْ مِنْ خَشْيَتِهِ مُشْفِقُونَ

---

[1] «Mömin» (Gafir) surəsi, ayə 7.
[2] «Şura» surəsi, ayə 5.
[3] «Bəqərə» surəsi, ayə 286.

***«Dedilər: «Rəhman özünə övlad götürdü!» O, pakdır, müqəddəsdir! Xeyr, möhtərəm qullardır. Ondan qabaq söz danışmaz, Yalnız Onun əmri ilə iş görərlər. Onlar yalnız (Allahın) razı olduğu kəslərdən ötrü şəfaət edə bilər və Onun heybətindən qorxarlar».***[1]

Ayədə sözügedən bəndələrdən biri də, Məryəm oğlu İsadır. Uca Allah bir başqa ayədə də belə buyurur:

وَلَا يَمْلِكُ الَّذِينَ يَدْعُونَ مِنْ دُونِهِ الشَّفَاعَةَ إِلَّا مَنْ شَهِدَ بِالْحَقِّ وَهُمْ يَعْلَمُونَ

***«Ondan qeyri ibadət etdikləri şəfaət edə bilməzlər. Ancaq haqqa şəhadət verənlər müstəsnadır».***[2] Bu iki ayə, mələklərin də şəfaət edə biləcəklərini göstərir. Çünki müşriklər, onların Allahın qızları olduqları fikrini irəli sürürdülər.

Mələklərin şəfaət səlahiyyətinə sahib olmalarına dəlil olaraq bu ayəni də qeyd edə bilərik:

وَكَمْ مِنْ مَلَكٍ فِي السَّمَاوَاتِ لَا تُغْنِي شَفَاعَتُهُمْ شَيْئًا إِلَّا مِنْ بَعْدِ أَنْ يَأْذَنَ اللَّهُ لِمَنْ يَشَاءُ وَيَرْضَىٰ

***«Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti heç bir fayda verməz. Ancaq Allah Öz istədiyi və razı olduğu kimsəyə izin verdikdən sonra».***[3]

Başqa bir ayədə Allah-Təala belə buyurur:

يَوْمَئِذٍ لَا تَنْفَعُ الشَّفَاعَةُ إِلَّا مَنْ أَذِنَ لَهُ الرَّحْمَٰنُ وَرَضِيَ لَهُ قَوْلًا يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يُحِيطُونَ بِهِ عِلْمًا

***«O gün Rəhmanın izin verdiyi və söz danışmağına razı olduğu kəslərdən başqa heç kimin şəfaəti fayda verməz!***

[1] «Ənbəya» surəsi, ayə 26-28.
[2] «Zuxruf» surəsi, ayə 86.
[3] «Nəcm» surəsi, ayə 26.

***Rəbbin) onların keçmişini də, gələcəyini də bilir. Onların elmi isə Onu əhatə edib qavraya bilməz!»***[1]

Bu ayədən anlaşıldığı kimi, qiyamət günü şahidlər də şəfaət edəcəklər:

وَلَا يَمْلِكُ الَّذِينَ يَدْعُونَ مِنْ دُونِهِ الشَّفَاعَةَ إِلَّا مَنْ شَهِدَ بِالْحَقِّ وَهُمْ يَعْلَمُونَ

***«Ondan qeyri ibadət etdikləri şəfaət edə bilməzlər. Ancaq haqqa şəhadət verənlər müstəsnadır».***[2]

Haqqa şahidlik etmiş olmaları sayəsində şəfaət səlahiyyətinə sahib olmuşlar. Bu halda hər şahid, şahidlik səlahiyyətinə sahib bir şəfaətçidir. Ancaq bu şahidlik, «Fatihə» surəsinin təfsirində bəhs etdiyimiz ayəsi də

وَكَذَٰلِكَ جَعَلْنَاكُمْ أُمَّةً وَسَطًا لِتَكُونُوا شُهَدَاءَ عَلَى النَّاسِ

***«Beləliklə də, sizi bir ümmət etdik ki, insanların əməllərinə şahid olasınız»*** [3] - döyüşdə şahid olmaq anlamındakı «şəhadət» deyil, əməllərə işarə olunan anlamındakı «şəhadət»dir.

Bu ifadədən, möminlərin də şəfaət edəcəkləri anlaşır. Çünki uca Allah, onların qiyamət günündə şəhidlərlə gələcəklərini xəbər vermişdir:

وَالَّذِينَ آمَنُوا بِاللَّهِ وَرُسُلِهِ أُولَٰئِكَ هُمُ الصِّدِّيقُونَ ۖ وَالشُّهَدَاءُ عِنْدَ رَبِّهِمْ

***«Allaha və peyğəmbərinə iman gətirənlər – məhz onlar öz Rəbbi dərgahında olan siddiqlər və şəhidlərdir».***[4]

«Hədid» surəsinin təfsirində, bu ayə ilə əlaqəli daha geniş izah verilir.

---

[1] «Taha» surəsi, ayə 109-110.
[2] «Zuxruf» surəsi, ayə 86.
[3] «Bəqərə» surəsi, ayə 143.
[4] «Hədid» surəsi, ayə 19.

## ŞƏFAƏTLƏ ƏLAQƏLİ İKİ XÜSUSİ

**Şəfaət nə ilə əlaqəlidir?**

Şəfaətin səbəblər aləmində varlıqla əlaqəli bütün səbəbləri əhatəsinə alan təkvini bir qisminin, savab və əzabla əlaqəli təşrii şəfaət olduğunu öyrəndin. Təşrii şəfaətin bir qismi şirkdən tutmuş daha aşağı mərtəbələrə qədər, bütün günahların cəzalarıyla əlaqəlidir. Qiyamət günündən əvvəl dünyada tövbə və imanın şəfaəti belədir: Bir qismi bizi saleh əməllər kimi, bəzən günahkarların nəticələriylə əlaqəlidir.

Üzərində bəhs etdiyimiz şəfaət isə, peyğəmbərlərin və başqalarının qiyamət günü hesablaşmadan sonra əzab çəkənlərdən, cəzalarının aradan qaldırılması üçün edəcəkləri şəfaət təşəbbüsüdür. Daha əvvəlki bölümlərdə bu cür şəfaətin, haqq dini mənimsəyən və dini inancı Allah tərəfindən xoş qarşılanan, lakin böyük günah edən kimsələrlə əlaqəli olduğunu öyrəndin.

## ŞƏFAƏT NƏ ZAMAN FAYDA VERİR?

Bunonla da, qətiləşmiş bir cəzanın icrasının aradan qaldırılmasına yol açan şəfaəti qeyd edirik. Uca Allahın bu sözü, dediklərimizi təsdiq edən mahiyyətdədir:

كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ رَهِينَةٌ إِلَّا أَصْحَابَ الْيَمِينِ فِي جَنَّاتٍ يَتَسَاءَلُونَ عَنِ الْمُجْرِمِينَ مَا سَلَكَكُمْ فِي سَقَرَ قَالُوا لَمْ نَكُ مِنَ الْمُصَلِّينَ وَلَمْ نَكُ نُطْعِمُ الْمِسْكِينَ وَكُنَّا نَخُوضُ مَعَ الْخَائِضِينَ وَكُنَّا نُكَذِّبُ بِيَوْمِ الدِّينِ حَتَّىٰ أَتَانَا الْيَقِينُفَمَا تَنْفَعُهُمْ شَفَاعَةُ الشَّافِعِينَ

***«Hər kəs öz əməlinin girovudur! Sağ tərəf sahibləri istisna olmaqla! Onlar cənnətlərdədirlər; bir-birindən***

***soruşacaqlar; Günahkarlar barəsində: «Sizi Səqərə (Cəhənnəmə) salan nədir?»***[1]

Daha əvvəldə qeyd etdiyimiz kimi, bu ayələr kimin şəfaətin əhatəsinə daxil olduğunu və kimin də bu əhatənin xaricində qaldığını vurğuluyan məqsədə istiqamətlənmişdir. Lakin bu ayələr, şəfaətin yalnız günahlara qarşılıq olaraq əməllərin girovunda olmaq, cəzalandırma və cəhənnəm zindanına atılma cəzasından qurtulma xüsusunda faydalı olacağını vurğulayırlar. Lakin bunlardan əvvəl ayədə qiyamət gününün dəhşətverici güşəsi və əqli dəhşətə gətirən bir hal üçün şəfaətin bir fayda verəcəyinə dair bir dəlil yoxdur. Hətta ayələrin, şəfaətin sırf cəhənnəmdə girov qalmaqdan qurtulma baxımından fayda verəcəyi şəkildə bir hüdudlandırmanı ifadə etdiyi də səslənə bilər.

Bu ayələrə istinad edərək, cənnət əhlinin cənnətdə və cəhənnəm əhlinin də cəhənnəmdə yerləşdirilmələrindən sonra şəfaətin bir qrup günahkarları əhatəsinə alıb, cəhənnəmdən xilas edilməsinin reallaşacağını deyə bilərik. Çünki «cənnət içində» ifadəsi, orada sakinləşmiş olduqlarını göstərir. «Sizi atəşə sürükləyən nədir?» ifadəsi də bunu göstərir. Çünki sürükləmə də, bir cür vadar olmaqdır. Lakin hər cür məcburi hal deyildir. Burada «toplanma»nın bir araya gətirmə və nizamlama mənası da vardır. Bu da sakin olmanı göstərir. «Onlara fayda verməz» ifadəsi də bu cür. Çünki ayənin orijinalında istifadə edilən və mənfi halı ifadə edən «ma» ədatı, indiki zamana istiqamətlənmiş bir mənfi hala dəlalət edər. Bu məsələ üzərində dərin düşünməlisən.

Bərzəx aləmində Həzrət Peyğəmbərimiz (s) və Əhli-beyt imamlarının ölüm və qəbir sorğusu halında hazır olub,

---

[1] «Müdəssir» surəsi, ayə 38-48.

çətinliklər qarşısında insana yardımçı olmaları məsələsinə gəlincə,

وَإِنْ مِنْ أَهْلِ الْكِتَابِ إِلَّا لَيُؤْمِنَنَّ بِهِ قَبْلَ مَوْتِهِ ۖ وَيَوْمَ الْقِيَامَةِ يَكُونُ عَلَيْهِمْ شَهِيدًا

***«And olsun, kitab əhlindən elə bir kəs olmaz ki, ölümündən əvvəl ona iman gətirməsin»*** [1] ayəsini təfsir kitabımızda izah edərkən bildirdiyimiz kimi, bunun Allah dərgahında şəfaətlə bir əlaqəsi yoxdur. Bunlar, uca Allahın izniylə onlara bəxş edilmiş olan bir səlahiyyətdir.

Uca Allah belə buyurur:

وَبَيْنَهُمَا حِجَابٌ ۚ وَعَلَى الْأَعْرَافِ رِجَالٌ يَعْرِفُونَ كُلًّا بِسِيمَاهُمْ ۚ وَنَادَوْا أَصْحَابَ الْجَنَّةِ أَنْ سَلَامٌ عَلَيْكُمْ ۚ لَمْ يَدْخُلُوهَا وَهُمْ يَطْمَعُونَ وَإِذَا صُرِفَتْ أَبْصَارُهُمْ تِلْقَاءَ أَصْحَابِ النَّارِ قَالُوا رَبَّنَا لَا تَجْعَلْنَا مَعَ الْقَوْمِ الظَّالِمِينَ وَنَادَىٰ أَصْحَابُ الْأَعْرَافِ رِجَالًا يَعْرِفُونَهُمْ بِسِيمَاهُمْ قَالُوا مَا أَغْنَىٰ عَنْكُمْ جَمْعُكُمْ وَمَا كُنْتُمْ تَسْتَكْبِرُونَ أَهَٰؤُلَاءِ الَّذِينَ أَقْسَمْتُمْ لَا يَنَالُهُمُ اللَّهُ بِرَحْمَةٍ ۚ ادْخُلُوا الْجَنَّةَ لَا خَوْفٌ عَلَيْكُمْ وَلَا أَنْتُمْ تَحْزَنُونَ

***«Onların ikisinin arasında pərdə var. Əraf üzərində isə kişilər vardır ki, onlar hamını üzündən tanıyıb cənnət əhlinə: «Sizə salam olsun!» - deyə müraciət edərlər. Bunlar (əraf əhli) çox istədiklərinə baxmayaraq hələ ora (Cənnətə) daxil olmamış kimsələrdir. Onların nəzərləri cəhənnəm əhlinə çevrildiyi zaman: «Ey Rəbbimiz! Bizi zalımlarla bir etmə!» - deyərlər. Əraf əhli üzlərindən tanıdıqları adamlara müraciət edib deyərlər: «Sizə nə yığdığınız mal-dövlət, nə də təkəbbürünüz fayda verdi», «Allah onları Öz mərhəmətinə nail etməyəcək, - deyə and içdilər? (o zaman nida gələr:) «Cənnətə daxil olun. Sizin heç bir qorxunuz yoxdur və siz qəm-qüssə görməyəcəksiniz!»*** [2]

---

[1] «Nisa» surəsi, ayə 159.
[2] «Əraf» surəsi, ayə 46.

Bu ayədə birbaşa eyni anlamı vurğulayır:

يَوْمَ نَدْعُو كُلَّ أُنَاسٍ بِإِمَامِهِمْ ۖ فَمَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ فَأُولَٰئِكَ يَقْرَءُونَ كِتَابَهُمْ وَلَا يُظْلَمُونَ فَتِيلًا

***«Bütün insanları öz imamları ilə birlikdə (hüzurumuza) çağıracağıq. Əməl dəftərləri sağ əllərinə verilənlər onu oxuyar».*** [1] Buna görə, imamın dəvət hərəkətində və kitabın verilməsində vasitəçilik etməsi, bəxş edilmiş bir səlahiyyətdir. Artıq bu məsələni dərindən düşünməyin lazımdır.

Nəticə olaraq ortaya bu çıxır ki, şəfaət, qiyamət günündəki ən son dayanacaqda reallaşır. Bu himayə, bağışlanma nəticəsində bəzi kimsələr cəhənnəmdən xilas olur, ya da cəhənnəmdə olanların bir qismi oradan çıxarılırlar. Heç şübhəsiz, bütün bunlar rəhmətin geniş əhatəsi və ya bəndələrə yönəlmiş ilahi lütfün zühuru sayəsində həqiqiləşir.

## HƏDİSLƏR BAXIMINDAN ŞƏFAƏT

Şeyx Səduqun «əl-Əmali» adlı əsərində Hüseyn ibn Xalidin İmam Rzadan (ə), onun da babalarından, onlarda Əmirəl-möminin Həzrət Əlidən (ə) bu sözləri eşidikləri rəvayət edilir: «Rəsulallah (s) buyurdu: «Mənim hovuzuma [2] inanmayanı, Allah hovuzunun başında gətirməyəcəkdir. Mənim şəfaətimə inanmayan, Allah şəfaətimin əhatəsinə almayacaqdır». Sonra belə buyurdu: «Mənim şəfaətim, ancaq ümmətimdən böyük günahlar edən kimsələr üçündür. Möhsin kimsələrə gəlincə, onların əleyhinə tətbiq ediləcək bir yol yoxdur». Hüseyn ibn Xalid İmam Rzadan (ə) belə soruşduğunu

---

[1] «İsra» surəsi, ayə 71.

[2] Cənnətdəki Kövsər hovuzu nəzərdə tutulur.

deyir: «Ey Rəsulallahın oğlu! Allah-Təalanın, «Ancaq Allahın razı olduğu kimsələr şəfaət edərər» sözü nə mənaya gəlir?» İmam buyurdu: «Bu, ancaq «Allahın dinindən razı olan kimsəyə şəfaət edərlər» anlamındadır».[1]

«Mənim şəfaətim, ancaq» sözünə gəlincə, bu mənanı möhkəmləndirən bir hadisə, həm şiə və həm də əhli-sünnət mənbələrində rast gəlmək olar. Yuxarıdakı ayələrdən də bunu möhkəmləndirən nəticələr çıxarıldı.

«Təfsirül-Əyyaşi»də nəql edilən bir hədisdə, Səmaa ibn Mehran, İmam Museyi-Kazımın (ə)

وَمِنَ اللَّيْلِ فَتَهَجَّدْ بِهِ نَافِلَةً لَكَ عَسَىٰ أَنْ يَبْعَثَكَ رَبُّكَ مَقَامًا مَحْمُودًا

***«Bəlkə, Rəbbin səni bəyənilib təriflənən bir məqama göndərsin!»*** [2] ifadəsiylə əlaqəli olaraq belə buyurduğunu rəvayət edir: «Qiymət günü insanlar qırx il müddətinə qədər bir yerdə qalarlar. Günəşə əmr edilər ki, insanların başı üzərində üzərində dur. Bu səbəbdən qan-tər içində olarlar. Yer üzünə əmr edilər, onların tanıdığı heç bir şey qəbul etməz. İnsanlar Adəm peyğəmbərin yanına gədib, özləri üçün şəfaət etməsini istəyərlər. O, Həzrəti Nuhu, Həzrət Nuh da Həzrəti İbrahimi göstərər onlara. Həzrəti İbrahim də onları Həzrəti Musanın yanına göndərər. Həzrəti Musa da Həzrəti İsanın yanına getmələrini söyləyər. Həzrəti İsa isə onlara belə deyər: «Bəşəriyyətin son peyğəmbəri olan Məhəmmədin yanına gedin». Həzrət Məhəmməd (s) deyər: «Sizin üçün şəfaət edəcəyəm». Sonra gedib cənnətin qapısını döyər. «Kimdir?» deyə bir səda gələr. Allah onun kim olduğunu bildiyi halda, o Həzrət (s), «Məhəmməd» - deyə cavab verər. «Ona qapını

---

[1] «əl-Əmali» səh. 16, hədis 4.
[2] «İsra» surəsi, ayə 79.

açın» - deyə səslənilər. Qapı açıldıqda, özünü Allahın hüzurunda görər və o an səcdə edər. Ona xitab edilər: «Danış, istə, istədiyin verilsin; şəfaət et, şəfaətin qəbul edilsin». Bu halda, o Həzrət başını səcdədən qaldırmaz. Başını qaldırdıqda, özünü Allahın əzəmət və nurunun qarşısında görər; təkrar səcdəyə gedər, bir az əvvəldə olduğu kimi ona söylənilər və o Həzrət başını səcdədən qaldırıb, odda yanan kimsələr üçün şəfaətçi olar. O gün, gəlib-keçmiş bütün ümmətlərə mənsub bütün fərdlər qiyamət günü özünə şəfaət etməsi üçün Həzrət Mühəmmədə (s) müraciət edər». Beləliklə, uca Allah «Bəlkə, Rəbbin səni vəsf edilmiş bir məqama yetişdirdi» sözündən məqsəd budur».[1]

Bu anlamı bildirən ifadələr bəzən aydın, bəzən qapalı, bəzən də təfərruatlı şəkildə müxtəlif mənbələrdə, həm şiə, həm əhli-sünnət qaynaqlarında rəvayət edilmişdir. Bu ifadələrdə, ayədə işarə edilən «vəsf edilmiş məqam»ın şəfaət məqamı olduğu vurğulanmışdır. Burada Peyğəmbərimizdən (s) başqa peyğəmbərlərin və başqalarının şəfaət edə bilmələri baxımından mənfi bir hal mövcud deyildir. Çünki digər peyğəmbərlərin və başqalarının şəfaətləri, Xətamül-ənbiyanın (s) şəfaətinin bir təfərruatı ola bilər. Bu səbəbdən də, şəfaət əziz peyğəmbərimiz Məhəmmədin (s) əliylə başlayır.

«Təfsiri-Əyyaşi»də İmam Baqir və ya İmam Sadiqdən (s) birinin, «Bəlkə, beləcə, Rəbbin səni vəsf edilmiş bir məqama yetişdirər» ifadəsi ilə əlaqəli olaraq, «Bu məqam şəfaətdir» dediyi rəvayət edilir.[2]

Yeni «Təfsirül-Əyyaşi»də Ubeyd ibn Zürarənin belə dediyi rəvayət edilir: «İmam Sadiqdən (ə) «Mömin üçün şəfaət

---

[1] «Təfsiri-Əyyaşi» cild 2, səh. 315, hədis 151.
[2] «Təfsiri-Əyyaşi» cild 2, səh. 315, hədis 151.

varmı?» - deyə soruşuldu. Həzrət buyurdu: «Bəli». Bu cavabdan sonra camaatın arasında bir nəfər o Həzrətdən (ə) «O gün mömin şəxsin Həzrət Məhəmmədin (s) şəfaətinə ehtiyacı varmı?» - deyə soruşdu. İmam buyurdu: «Bəli. Möminlərin bir qrup xətaları və günahları olur. O gün Həzrət Məhəmmədin (s) şəfaətinə möhtac olmayan heç kimsə yoxdur». Sonra bir nəfər Rəsulullahın «Mən adəmoğullarının ağasıyam, lakin burada qürurlanacaq bir hal yoxdur» şəklində söylədiyi sözlərinin nə məna ifadə etdiyini soruşdu. İmam buyurdu: «Bəli. Rəsulullah cənnətin qapısının halqasını tutaraq açar, sonra səcdəyə qapanar. Uca Allah ona buyurar: «Qaldır başını, şəfaət et, şəfaətin qəbul edilsin; istə, istədiyin verilsin». Bundan sonra Peyğəmbərimiz başını qaldırıb, şəfaət edər, şəfaəti qəbul edilər; istədiyi şey ona verilər».[1]

«Əl-Furat» təfsirində Məhəmməd ibn Qasım ibn Ubeyddən, zəncirvari olaraq Bəşr ibn Bureyh əl-Bəsridən belə rəvayət edilir: Məhəmmıd Baqirə (ə) dedim:

- Allahın kitabında hansı ayə daha çox ümidvericidir?

İmam (ə) buyurdu:

- Sənin qövmün bu mövzuda nə düşünür?

- Mənim qövmümə görə, Qurani-Kərimdəki ən çox ümidverici olan ayə budur:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَىٰ أَنْفُسِهِمْ لَا تَقْنَطُوا مِنْ رَحْمَةِ اللَّهِ ۚ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا

***«Ey Mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın».***[2]

---

[1] «Təfsiri-Əyyaşi» cild 2, səh. 314, hədis 148.
[2] «Zumər» surəsi, ayə 53.

- Amma biz Əhli-beyt belə demirik.
- Yaxşı, sizə görə ən çox ümidverici olan ayə hansıdır?
- Bizə görə ən çox ümidverici olan ayə budur:

وَلَسَوْفَ يُعْطِيكَ رَبُّكَ فَتَرْضَىٰ

***«Həqiqətən, Rəbbin sənə bəxş edəcək və sən razı olacaqsan!»***[1]

Bu şəfaətdir. Vallahi bu şəfaətdir»[2]

«Bəlkə, beləcə, Rəbbin səni vəsf edilmiş bir məqama yetişdirər» sözü ilə şəfaətin nəzərdə tutulduğunu ifadə edən çox saylı hədislərdən başqa, ayənin ifadə tərzindən də bunu anlamaq mümkündür. Çünki «yetişdirər» ifadəsi gələcəyi bildirir və bu məqamın Peyğəmbərimizə (s) qiyamət günü veriləcəyinə işarə edir. «Vəsf edilmiş» ifadəsi də mütləqdir, heç bir şərti yoxdur. Hər hansı bir hüdudlandırmanı qarşıya çıxarmayan bu vəsf, bunun əvvəlkilər və sonrakılarla bərabər bütün insanlıq tərəfindən bəyan ediləcəyini göstərir.

Vəsf, istəyə bağlı olaraq həqiqiləşdirilən özəl bir şeyin ucalığını ifadə etməkdir. Bu da hər kəsin faydalanacağı, istifadə edəcəyi və vəsf ilə zikr edilən bir işin Peyğəmbərimiz (s) tərəfindən bilavasitə həyata keçiriləcəyini göstərir. Bu səbəbdən İmam (ə) Ubeyd ibn Zürarənin söylədiyi rəvayətdə belə deyir:

***«O gün Həzrət Məhəmmədin (s) şəfaətinə möhtac olmayan heç kimsə yoxdur».*** Bu anlamı, qarşıda daha gözəl bir baxımdan açıqlayacağıq.

***«Ey özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidinisizi kəsməyin!»*** ayəsinin yerinə,

---

[1] «Zuha» surəsi, ayə 5.
[2] «Əl-Furat» təfsiri, səh. 215.

***«Rəbbin sənə bəxş edəcək və sən razı olacaqsan»*** ayəsinin Allahın kitabındakı ən çox ümidverici ayə olması məsələsinə gəlincə, Allahın rəhmətindən ümid kəsmənin qadağan olmasını Quranda aşkar görmək olar. Bu ifadə Həzrət İbrahimin (ə) dilindən rəvayət edilir:

قَالَ وَمَنْ يَقْنَطُ مِنْ رَحْمَةِ رَبِّهِ إِلَّا الضَّالُّونَ

***«Azğın bir qövmdən başqa, kim Rəbbinin mərhəmətindən ümidini kəsər?!»*** [1] Bir dəfə də Həzrət Yaqubun dlindən xatırlanır:

إِنَّهُ لَا يَيْأَسُ مِنْ رَوْحِ اللَّهِ إِلَّا الْقَوْمُ الْكَافِرُونَ

***«Kafir qövmdən başqası Allahın rəhəmətindən yalnız ümidini kəsməz».*** [2]

Mövzulardan müşahidə etdildiyi kimi, bu iki ayə vaqlıqla əlaqəli təkvini rəhmətdən ümid kəsməyə işarə edir:

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَىٰ أَنْفُسِهِمْ لَا تَقْنَطُوا مِنْ رَحْمَةِ اللَّهِ ۚ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا ۚ إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ وَأَنِيبُوا إِلَىٰ رَبِّكُمْ وَأَسْلِمُوا لَهُ مِنْ قَبْلِ أَنْ يَأْتِيَكُمُ الْعَذَابُ ثُمَّ لَا تُنْصَرُو

***«De ki: «Ey özlərinə zülm etməkdə həddi aşan bəndələrim! Allahın rəhmindən ümidinisizi kəsməyin. Allah bütün günahları bağışlayar. Çünki, O çox bağışlayandır, rəhm edəndir! Əzab sizə gəlməmişdən əvvəl Rəbbinizə tərəf dönün və Ona təslim olun ki, sonra sizə yardım olunmaz»***[3] ayələrində «Özlərinə zülm etməkdə həddi aşan bəndələrim!» ifadəsindən başa düşüldüyü qədər, burada təşrii rəhmətdən ümid kəsmə qadağan olunmaqla birlikdə, bu ümid kəsmənin

---

[1] «Hicr» surəsi, ayə 56.
[2] «Yusif» surəsi, ayə 87.
[3] «Zumər» surəsi, ayə 53-54.

günah səbəbiylə olduğu da anlaşılır. Uca Allah da istisnasız bütün günahlar üçün bağışlamağı ümumiləşdirməklə bərabər, tövbəni – İslamın saleh əməl əmrini verir. Buda göstərir ki, nəfsinə *(özünə)* zülm edən bəndə tövbə etmək, İslam və saleh əməli seçmə imkanı olduğu müddətdə, Allahın rəhmətindən ümidini kəsməməlidir.

Qisaca desək, mövcud rəhmət şərtli rəhmətdir. Uca Allah bəndələrinə, Ona tərəf yönəlməyi əmr etmişdir. Şərtli bir rəhməti ummaq, uca Allahın aləmlər üçün rəhmət olaraq göndərdiyi Peyğəmbərinə bəxş etdiyi bir rəhməti, hüdudsuz bir bəxşişi və xoşbəxtliyi ummaq kimi deyildir. Bu vəd ilə uca Allah elçisinin könlünü xoş tutur, ona üstünlük verir: ***«Rəbbin sənə bəxş edəcək və sən razı olacaqsan»***

Bunu belə açıqlamaq mümkündür: ayə, lütf və bəxşişi vurğulamaq məqsədini daşıyır. Burada Həzrət Peyğəmbərimizə (s) məxsus bir vədə yer verilir ki, uca Allah yaratdığı canlılar arasında heç kimsəyə belə bir vəd verməmişdir. Allah-Təala Rəsulullaha yönəlmiş olduğu bu bəxşişini heç bir şeylə hüdudlandırmamışdır. Bu səbəbdən bu, hüdudsuz bir bəxşişdir!

Uca Allah buna bənzər bir lütfü, cənnətdəki bəzi bəndələrinə də bəxş etmişdir:

لَهُمْ مَا يَشَاءُونَ عِنْدَ رَبِّهِمْ

***«Onlar üçün Rəbbləri yanında istədikləri hər şey vardır».***[1]

لَهُمْ مَا يَشَاءُونَ فِيهَا وَلَدَيْنَا مَزِيدٌ

[1] «Şura» surəsi, ayə 22.

***«Orada onlar üçün dilədikləri hər şey vardır. Bizim dərgahımızda isə bundan daha çoxu vardır!»***[1]

Burada, onlara istədiklərindən çox nemətlər bəxş edildiyi ifadə edilir. İstək isə, insanın ağlına gələ biləcək hər cür səadət və gözəlliklə əlaqəlidir. Lakin bir yandan insanın ağlına gəlməyəcək nemət və bəxşişlər də vardır. Çünki uca Allah belə buyurur:

فَلَا تَعْلَمُ نَفْسٌ مَا أُخْفِيَ لَهُمْ مِنْ قُرَّةِ أَعْيُنٍ جَزَاءً بِمَا كَانُوا يَعْمَلُونَ

***«Heç kəs bilməz ki, onlara etdikləri əməllərin əcri olaraq göz aydınlığı olan nəcə şeylər saxlanmışdır».***[2] Allahın iman gətirib saleh əməllər edən bəndələrinə bəxş etdiyi nemətlərin miqdarı bu olduğuna görə, uca Allahın lütf və bəxşiş anlamında peyğəmbəri Həzrət Məhəmmədə (s) bəxş etdiyi nemətlərin nə qədər geniş əhatəli və görkəmli olacağını anlamalısan.

Uca Allahın bəxşişinin keyfiyyəti budur ki, Həzrət Peyğəmbərimizin (s) şad olmasına gəlincə, bu xoşhallıq Allah-Təalanın əmri istiqamətində bəxş etdiyi nemətə razı olmaq deyildir. Çünki uca Allah hər şeyin sahibidir və zənginliyi hüdudsuzdur. Bəndə isə, məcburiyyət qarşısında aciz qalan, yoxsulluq və möhtaclıq məqamındadır. Bu səbəbdən, Rəbbinin bəxş etdiyi az və ya çox nemətə razı olmalıdır. Rəbbinin onunla əlaqəli olaraq verdiyi qərara razılıq göstərməlidir. İstər bu qərar onu sevindirsin, istər kədərlənməsinə səbəb olsun, fərq etməz.

Bəxşişin müqabilində razılıq göstərilən zaman, başqa bir anlam da ifadə edər. Bu riza yoxsula, yoxluğundan şikayətçi olduğu şeyi verərək, ac insanı doydurduqda xoşlandığı bir hala bənzər. Buna görə də bu, hüdudsuz bir bəxşişlə şad etməkdir.

---

[1] «Qaf» surəsi, ayə 35.
[2] «Səcdə» surəsi, ayə 17.

Bunun bənzərini Allah-Təala bəzi bəndələrinə də vəd etmişdir:

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ أُولَٰئِكَ هُمْ خَيْرُ الْبَرِيَّةِ جَزَاؤُهُمْ عِنْدَ رَبِّهِمْ جَنَّاتُ عَدْنٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا ۖ رَضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ ۚ ذَٰلِكَ لِمَنْ خَشِيَ رَبَّهُ

***«Həqiqətən, iman gətirib saleh əməllər edən kimsələr, yaradılmışların ən yaxşısıdır. Onların Rəbbləri yanında mükafatı (ağacları) altından çaylar axan cənnətlərdir. Orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan. Bu əcr Rəbbindən qorxanlar üçündür!»***[1]

Heç şübhəsiz, bu bəxşiş onlar üçün məxsus olaraq ayrılmışdır. Onun üçün bəxş edilən, möminlərin nemətlərindən daha geniş və daha üstün olmalıdır. Bu səbəbdən Haqq-Təala Peyğəmbərini (s) xatırlayarkən, belə buyurur:

بِالْمُؤْمِنِينَ رَءُوفٌ رَحِيمٌ

***«Möminlərə qarşı şəfqətli və mərhəmətlidir!»***[2] Burda Allah Peyğəmbərimizin (s) möminlərə qarşı acıma duyğusuyla dolu və şəfqətli olduğunu vurğulayır.

Tutaq ki, bəzi möminlər Allahın rəbbliyini qəbul etdikləri, Allahın elçisinə, peyğəmbərlik missiyasına inandıqları və Rəsulallah (s) gətirdiyi ilahi qanunları təsdiq etdikləri halda, cəhalətlikləri üzündən şeytanın hiyləsinə düşüb inadkarlıq və qürurlanmağa qapılaraq, bir qrup günahkarlar etdikləri üçün odun içində zindan həyatı sürərkən Peyğəmbərimiz şad, könlü rahat ola bilərmi? Çənnət nemətlərindən zövq ala, cənnətbağçalarında sevincdən coşa bilərmi? Hər hansı birimiz

---

[1] «Bəyyinə» surəsi, ayə 7-8.
[2] «Tövbə» surəsi, ayə 128.

ömrünün keçən qisminə dönüb baxdıqda, yarımçıq qalmış kamalları, tamamlanmamış gözəl əməlləri görsə, böyük bir qəzəbə qapılıb, gücü və imkanı daxilində olan bu xüsusları yerinə yetirmədiyi üçün özünü qınayar. Lakin gəncliyin cəhalətinə, təcrübəsizliyinə baxdıqda, çox etimal ki, Allahın onun fitrətində əmanət kimi qoyduğu kiçik mərhəmət səbəbilə qəzəb atəşi sönər, qınayıcı davranışını tərk edər. Yaradılışın bu məhdud və nöqsanlı acıma duyğusu təkrarlanar.

Sən, sırf insanın cəhalət və zəif xüsusiyyətlərindən qaynaqlanan bir hərəkət qarşısında aləmlərin Rəbbinin rəhmətini nə sanırsan?! Möminlərə qarşı acıma duyğusuyla dolu olan şəfqətli və mərhəmətli Peyğəmbərin (s) cömərd xüsusiyyətlərini necə dəyərləndirə bilərsən?! Mərhəmətlilərin ən mərhəmətlisi uca Allah bəndələrinə acımazmı? Üstəlik günahkar insan, qiyamət gününün o dəhşətli şəraitini, günahının labud iztirabını sonuna qədər hiss etmişdir.

«Təfsirül-Qummi»də ***«İzn verdikləri istisna olaraq, Onun yanında şəfaət fayda verməz»*** ayəsi ilə əlaqəli olaraq, Əbu Abbas əl-Mükəbbirin belə dediyi rəvayət edilir: «İmam Zeynəlabidinin (ə) zövcəsinin Əbu Əymən adında azad edilmiş köləsi bir gün İmam Məhəmməd Baqirin (ə) yanına gəlib, belə dedi: «Ey Əbu Cəfər, insanların ağlını azdırırsınız» və «Məhəmmədin şəfaəti» deyib durursunuz». Bu sözlər İmam Baqiri (ə) çox qəzəbləndirdi və üzünün rəngi dəyişdi. İmam daha sonra buyurdu: «Vay sənin halına ey Əbu Əymən! Övrət yerini və qarnını iffətli saxlamağın səni aldatdımı? (yəni bu ikisiylə xilas ola bilməzsən) Heç şübhəsiz, qiyamətin dəhşətini gördüyün anda, Məhəmmədin şəfaətinə möhtac olacaqsan. Yazıqlar olsun sənə! Həzrəti Məhəmməd odda yananlardan başqasına şəfaət edəcəkmi?! Əvvəlki və sonrakı ümmətlərdən qiyamət günü Məhəmmədin şəfaətinə möhtac olmayan bir kəs

yoxdur». Daha sonra İmam Baqir (ə) sözünə davam edərək, belə buyurdu: «Rəsulallah ümməti üçün şəfaət edəcək, biz də şiələrimiz üçün şəfaət edəcəyik. Şiələrimiz də ailələrinə şəfaət edəcəklər». Daha sonra buyurdu: «Heç şübhəsiz, bir mömin Rəbiə və Muzərr tayfasına mənsub insanların sayı qədər insana şəfaət edər. Mömin xidmətçisi üçün şəfaət edər və deyər ki: «Ya Rəbbim! Bu mənə xidmət göstərir, məni istidən və soyuqdan qoruyurdu».[1]

«Əvvəlki və sonrakı ümmətlərdən qiyamət günü Məhəmmədin (s) şəfaətinə möhtac olmayan heç kimsə yoxdur» ifadəsi göstərir ki, bu şəfaət ümumi xüsusiyyətlidir və «Vay sənin halına! Məhəmməd, odda yananlardan başqasına şəfaət edəcəkmi?!» ifadəsində vurğulanan şəfaətdən ayrıdır. Buna bənzər bir anlam da Əyyaşinin Ubeyd ibn Zürarə, onun da İmam Sadiqdən (ə) eşitdiyi rəvayətdə ifadə edilmişdir.

Bu mənanı şiə və sünni mənbələrində möhkəmləndirən bir çox rəvayət vardır. Dediklərimizə dəlil kimi, uca Allahın bu kəlamı da dəlalət edər:

وَلَا يَمْلِكُ الَّذِينَ يَدْعُونَ مِنْ دُونِهِ الشَّفَاعَةَ إِلَّا مَنْ شَهِدَ بِالْحَقِّ وَهُمْ يَعْلَمُونَ

***«Ondan qeyri ibadət etdikləri şəfaət edə bilməzlər. Ancaq haqqa şəhadət verənlər müstəsnadır».***[2]

Bu ayə göstərir ki, şəfaətin özündə şahidlik mövcuddur. Bu halda şahidlər, şəfaət səlahiyyətinə sahib şəfaətçilərdir.

وَكَذَٰلِكَ جَعَلْنَاكُمْ أُمَّةً وَسَطًا لِتَكُونُوا شُهَدَاءَ عَلَى النَّاسِ وَيَكُونَ الرَّسُولُ عَلَيْكُمْ شَهِيدًا

[1] «Təfsirül-Qummi» cild 2, səh. 202.
[2] «Zuxruf» surəsi, ayə 86.

***«Beləliklə də, sizi orta bir ümmət etdik ki, insanlara şahid olasınız, Peyğəmbər də (Həzrət Muhəmməd (s) sizə şahid olsun»***[1] ayəsinin təfsirində, bu məsələni daha təfərruatı ilə açıqlamışıq. Buna görə də, peyğəmbərlər insanlar üzərində şahiddirlər, Həzrət Məhəmməd (s) də peyğəmbərin üzərində şahiddir; şahidlərin şahidi, bu səbəbdən şəfaətçilərin şəfaətçisidir. Əgər şahidlərin şahidliyi olmasa, qiyamətdəki əzaba heç bir əsas olmaz.

«Təfsirül-Qummi»də ***«İzn verdikləri istisna olaraq, Onun yanında şəfaət fayda verməz»*** ifadəsiylə əlaqəli olaraq, belə bir açıqlama vardır: «Allah izn vermədiyi müddət ərzində, heç bir nəbi və rəsul şəfaət edə bilməz. Lakin Rəsulallah (s) bu ümumiliyin xaricindədir. Çünki uca Allah qiyamət günündən əvvəl ona şəfaət izni və səlahiyyəti vermişdir. Şəfaət etmək, xüsusən onun və nəslindən gələn imamların, bundan sonra da peyğəmbərlərin haqqıdır».[2]

«Əl-Xisal»da Həzrət Əlinin (ə) belə buyurduğu rəvayət edilir: «Rəsulallah (s) dedi: «Üç dəstə Allah dərgahında şəfaət edərlər və şəfaətləri də qəbul edilir: Peyğəmbərlər, sonra alimlər və daha sonra da şəhidlər».[3]

Çox etimal, bu hədisin əslində olan «şühada» kəlməsindən məqsəd, döyüş meydanında öldürülən kimsələrdir. Əhli-beyt imamlarının dilində bu kəlmə daha çox bu mənada istifadə olunur. Yəni burada, Qurandan bizə yetişən istilahlarda olduğu kimi, «əməllərin şahidləri» nəzərdə tutulmamışdır.

«Əl-Xisal»da, 400-cu hədisdə də belə oxuyuruq: İmam (ə) buyurdu: «Biz şəfaət edərik, bizi sevənlər də şəfaət edərlər».[4]

---

[1] «Bəqərə» surəsi, ayə 143.
[2] «Təfsirül-Qummi» cild 2, səh. 201.
[3] «Əl-Xisal» səh. 156.
[4] «Əl-Xisal» səh. 624.

İki dünya xanımı Həzrəti Fatimə (s.ə), imamlardan başqa Həzrəti Fatimənin nəslindən gələn şəxslərin, möminlərin və hətta möminlərin kiçik uşaqlarının belə şəfaət edəcəkləri ilə əlaqəli bir çox hədis rəvayət edilmişdir. Məşhur bir hədisdə Peyğəmbərimiz (s) belə buyurur: «Evlənin, çoxalın. Çünki mən qiyamət günü digər ümmətlər qarşısında, hətta siqt olunmuş uşaqlarınız daxil olmaqla belə, sizinlə öyünəcəyəm. Şəhid uşaq qiyamət günü cənnətin qapısında dayanar. Ona «içəri daxil ol» deyilər. Lakin o, «Anam-atam keçməyincə, mən keçmərəm» - deyər...»

«Əl-Xisal»da bildirildiyinə görə, İmam Sadiq (ə) atasından, o da atasından və nəhayət, Həzrəti Əlidən (ə) belə rəvayət edir: «Cənnətin səkkiz qapısı vardır. Bir qapıdan peyğəmbərlər və siddiqlər keçib gedərlər. Bir qapıdan şəhidlər və salehlər daxil olarlar. Beş qapıdan da bizim tərəfdarlarımız (şiə) və sevənlərimiz keçərlər. Mən də o sırada yol üstündə durub belə dua edirəm: «Rəbbim, mənim şiəmə, sevənlərimə, yardımçılarıma və dünya yurdunda mənə dost olanlara səadət ver». O anda ərşdən belə bir səs gələr: «Duan qəbul edildi. Şiən üçün şəfaət edə bilərsən». Şiəmə, dostlarıma, yardım edənlərimə və söz və əməllə düşmənlərimlə döyüşən hər bir insan, qohumlarından və əqrabalarından yetmiş min insan üçün şəfaət edərəm. Bir qapıdan da Allahdan başqa bir ilah olmadığına şahidlik edən və qəlbində, biz Əhli-beytə qarşı ən kiçik bir kin hissi olmayan digər müsəlmanlar keçərlər».[1]

«Əl-Kafi»də bildirdiyinə görə, Həfs əl-Müəzzin İmam Sadiqin (ə) əshabına göndərdiyi məktubda belə dediyini rəvayət edir: «Bilin ki, Allahın yaratdıqlarından heç kəs nə müqərrəb bir malik, nə göndərilmiş bir peyğəmbərvə nə də

[1] «Əl-Xisal» səh. 407.

başqa birisi Allah qarşısında sizə bir fayda verə bilməzx. Kim Allah dərgahında şəfaətçilərin şəfaətindən faydalanmaq sevincinə nail olmaq istəyirsə, Allahın ondan razı olmasını istəsin».[1]

«Əl-Furat» təfsirində, İmam Sadiqdən (ə) gələn bir rəvayətə görə, Cabir İmam Baqirə (ə) belə demişdir: «Sənə fəda olum, ey Rəsulallahın oğlu! Mənə böyük anan Fatimə haqqında bir hədis söylə». İmam (ə) Həzrət Fatimənin qiyamət günü şəfaət edəcəyi ilə əlaqədar olan bir hədisi nəql edərək, belə buyurdu: «Allaha and olsun ki, Onun dininə şübhə edəndən və ya kafirdən, ya da münafiqdən başqa heç kimsə atəşdə qalmaz. Bunlar atəşin dərinləriklərinə sürükləndikləri zaman, uca Allahın da vurğuladığı kimi, «Bizim üçün nə şəfaətçilər və nə də yaxın bir dost vardır. Əgər bir dəfə daha dünyaya dönsəydik, heç şübhəsiz, möminlərdən olardıq» - deyə səslənərlər». İmam Baqir (ə) buyurdu: «Qeyri-mümkün! İstəkləri geri qayıtsa və əgər təkrar dünyaya göndərilsələr belə, yenə də onlar qadağan olunmuş işləri edərlər».[2]

Həzrətin «Bizim üçün şəfaətçilər yoxdur» sözündən belə məlum olur ki, İmam (ə) bu ayə ilə şəfaətin reallaşacığının dəlilləndirilməsinə işarə etmək istəmişdir. Şəfaəti inkar edənlər də, bu ayəni şəfaətin həqiqiləşməyəcəyinə yönəlmiş bir dəlil olaraq dəyərləndirmək istəmişlər. Biz də daha əvvəl «Şəfaətçilərin şəfaəti onlara fayda verməz» ifadəsinin, şəfaətin varlığına dəlil olduğunu əsaslı şəkildə ortaya qoymuşduq. Əgər bu ifadədən məqsəd sırf şəfaətin gerçəkləşməyəcəyini vurğulamaq olsaydı, o zaman ifadənin bu şəkildə olması lazım gəlirdi: «Bizim üçün nə bir şəfaət edən və nə də yaxın bir dost

---

[1] «Rövzətül-Kafi» cild 8, səh. 10.
[2] «Əl-Furat» təfsiri, səh. 113-114.

vardır». Lakin bu ayə şəfaətin insanlar üçün gerçəkləşəcəyini, sadəcə olaraq yalnız bir dəstə üçün fayda verməyəcəyini göstərir.

«Əgər bir dəfə daha dünyaya dönsəydik, heç şübhəsiz, möminlərdən olardıq» ifadəsi, «Bizim üçün nə şəfaətçilər və nə də yaxın bir dost vardır» iadəsindən sonra yer alır və bu sözlər, yaşanan reallıq, duyulan həsrəti ifadə edir. Bilindiyi kimi həsrət çəkməlk, qeyb olan bir şeyə görə meydana gəlir və bu həsrəti ifadə edən sözlər, həsrəti duyulan şeyi də ifadə edir. Buna görə də, «Əgər bir dəfə daha dünyaya dönsəydik...» sözünün mənası budur ki, əgər dünyaya dönüb möminlərdən olsaydıq, bu möminlər kimi bizə də şəfaətçilərin şəfaəti şamil olardı. Bu halda, bu ayə də digər ayələr kimi şəfaətin gerçəkləşəcəyini sübuta yetirir.

«Ət-Tövhid»də, İmam Museyi-Kazımın (ə) babasından, onun da atalarından nəql edilən bir hədisdə peyğəmbərimiz Həzrət Məhəmmədin (s) belə buyurduğu rəvayət edilir: «Mənim şəfaətim ümmətimdən böyük günah edənlər üçündür. Möhsinlərə gəlincə, onların əleyhinə istifadə ediləcək bir yol yoxdur». İmam Kazımdan (ə) soruşuldu: «Ey Rəsulallahın oğlu! Böyük günah edənlər üçün şəfaət mümkün olarmı? Məgər uca Allah «Ancaq Onun razı olduğu kimsə üçün şəfaət edənlər» demirmi? Böyük günah edənlər Allahın razı olduğu kimsələr ola bilirlərmi?» Bu sualın müqabilində İmam (ə) buyurdu: «Heç bir mömin yoxdur ki, bir günah etdiyi zaman peşman olmasın. Peyğəmbərimiz (s) buyurdu: «Tövbə üçün peşman olmaq kifayət edər». Və yenə buyurur: «Kim yaxşı bir işə görə sevinər, pis bir işə görə peşman olarsa, o, mömindir». Buna görə də, etdiyi bir günaha görə peşman olmayan insan mömin deyildir. Ona şəfaət olunmaz və o, zalımdır! Allah-Təala bununla əlaqəli olaraq «Zalımların yaxın bir dostu və

sözü yerinə yetirilən bir şəfaətçisi yoxdur» buyurur. Buna əlavə olaraq soruşuldu: «Ey Rəsulallahın oğlu! Etdiyi günah görə peşman olmayan insan nə üçün mömin olmaz?» Həzrət (s) belə buyurdu: «Böyük bir günah müqabilində cəzalandırılacağını bilən bir kəs ola bilməz ki, etdiyi günaha görə peşman olmasın. Nə zaman peşman olarsa, tövbə etmiş *(Allaha dönüş)* və şəfaəti gerçəkləşmiş olar. Lakin peşman olmasa, günahda israr edənlərdən sayılar. Günahda israr edəninsə, bağışlanması mümkün deyil. Çünki o, etdiyi günaha görə cəzalandırılacağına inanmayandır. Əgər cəzalandırılacağına inansaydı, peşman olardı. Çünki Peyğəmbərimiz belə buyurur: «İstifğar edildikdən sonra böyük günahdan söz açılmaz. İsrar etdikdə də, kiçik günahdan bir söz dəyilməz».

Uca Allah «Ancaq Onun razı olduğu kimsələr üçün şəfaət edənlər» sözünə gəldikdə, bu deməkdir ki, ancaq Allahın dinindən razı olduğu kimsələr üçün şəfaət edərlər. Din isə, yaxşılıq və pisliklərin bəlli bir gündə əvəzlərini görəcəklərinə inanmaqdır. Buna görə, dinindən razı olan insan qiyamət günü cəzalandırılacağını bildiyi üçün etdiyi günahlarına görə peşman olar».[1]

İmamın «o zalımdır» sözü, qiyamət günü zalım olanların xüsusiyyətləndirilməsidir. Eyni zamanda, Qurani-Kərim də onların xüsusiyyətlərinə işarə edir:

وَنَادَىٰ أَصْحَابُ الْجَنَّةِ أَصْحَابَ النَّارِ أَنْ قَدْ وَجَدْنَا مَا وَعَدَنَا رَبُّنَا حَقًّا فَهَلْ
وَجَدْتُمْ مَا وَعَدَ رَبُّكُمْ حَقًّا ۖ قَالُوا نَعَمْ ۚ فَأَذَّنَ مُؤَذِّنٌ بَيْنَهُمْ أَنْ لَعْنَةُ اللَّهِ عَلَى الظَّالِمِينَ
الَّذِينَ يَصُدُّونَ عَنْ سَبِيلِ اللَّهِ وَيَبْغُونَهَا عِوَجًا وَهُمْ بِالْآخِرَةِ كَافِرُونَ

***«Cənnət əhli cəhənnəm əhlinə müraciət edib deyərlər: «Həqaiqətən, biz Rəbbimizin bizə verdiyi vədənin doğru***

---

[1] «Ət-Tövhid» səh. 407, bab 43, hədis 6.

***olduğunu gördük. Siz də Rəbbinizin vədinin doğru olduğunu gördünüzmü?». Onlar: «Bəli!» – deyərlər. Onda aralarında bir carçı: «Allah zalımlara lənət eləsin!» – deyə car çəkər. (İnsanları) Allah yolundan döndərənlər, onu (yolu) əyri hala salmaq istəyənlər, axirəti də inkar edirlər».***[1]

Buna görə də zalım, əməllərin əvəzini veriləcəyi günə inanmayan, Allahın əmrlərinə təslim olmadığına görə peşman olmayan, Onun haram etdiyi işlərdən çəkinmədiyinə görə qəlbində bir iztirab duymayan kimsədir. Bunun səbəbi isə, ya ilahi vəhyə və dini təlimlərə inanmaması, ya da ilahi qanunları əhəmiyyətsiz və kiçik sayması və əməllərin əvəzinin veriləcəyinə lazım olan diqqəti göstərməməsi, eləcə də dinin elan etdiyi cəza gününü yüngül tutmasıdır.

İmamın, **«tövbə etmiş olsa, şəfaəti gercəkləşər»** sözünün mənası budur ki, yəni, rzı olduğu bir dinin sahibi olaraq Allaha dönərsə, bu halda şəfaəti gerçəkləşər. Bil ki, «tövbə» istilah etibarı ilə nə bir şəfaətçi, nə də xilasedicidir.

İmamın «Çünki Peyğəmbər belə buyurmuşdur: «İstiğfar etdikdə, böyük günahdan söz açılmaz» şəklində dəyərləndirməsi göstərir ki, İmam (ə) məsələyə israr baxımından yaxınlaşmışdır. İsrar isə, günahdan çəkinmək və günah etməyə peşman olmamaqdır. Bu vəziyyətdə günah əsl necəliyindən başqa bir hal alar. Yəni günah, günahdan çıxıb axirəti təkzib və Allahın ayələrinə qarşı haqsızlıq etməyə dönür; buna görə də, bağışlanmanın əhatəsinə daxil ola bilməz. Çünki günah ya tövbə, ya da sevic hissi ilə dinə bağlı olduğu halda gərçəkləşəcək şəfaət vasitəsi ilə bağışlanmanın əhatəsinə daxil olar. Onlar isə, nə tövbə nə də sevinclə qarşılanan bir din mövcudur.

---

[1] «Əraf» surəsi, ayə 44-45.

Buna bənzər bir rəvayət də «əl-İləl»də, Əbu İsaq əl-Leysi tərəfdən yetişmişdir. O belə nəql edir: «İmam Məhəmməd Baqirə (ə) dedim:

- Ey Rəsulallahın oğlu! Mənə xəbər ver. Görəsən, elm və kəmalın son nöqtəsinə yetişmiş bəsirətli bir mömin zina edərmi?

İmam qətiyyətlə «xeyir» - deyə cavab verdi.

- Ləvat əlaqəsində olarmı?
- Xeyr!
- Oğurluq edərmi?
- Xeyir!
- Yaxşı, şərab içərmi?
- Xeyr!
- Sözügedən bu böyük günahlardan və ya həyasızlıqlardan birini edərmi?
- Xeyr!
- Yaxşı, bir günah edərmi?
- Bəli, o mömindir, günahkar müsəlmandır.
- «Müsəlman» nə deməkdir?

İmam sualımın cavabında belə buyurdu: «Müsəlman, günahı adət halına gətirməz və günahda israr etməz».[1]

«Əl-Xisal» müxtəlif mənbələrdən İmam Rzanın (s) babalarından bu hədisin rəvayət edildiyi bildirilir: «Rəsulallah (s) buyurdu: «Qiyamət günü uca Allah mömin bəndələrinə təcəlli edər. Etdiyi günahları bir-bir ona bildirər və sonra onu bağışlayar. Uca Allah heç bir müqqərəb mələyi və heç bir göndərilmiş peyğəmbəri onun halından xəbərdar etməz. Kimsənin onun halını öyrənməsinə izn verməz, onun bütün eyib və günahların örtər».

---

[1] «İləl əş-Şərayi» sxəh. 489.

«Səhih-Müslim»də sənədi Əbuzərə yetişən bir hədisdə Rəsulallahın (s) belə buyurduğu rəvayət edilir: «Qiyamət günü bir nəfər hesaba çəkilərkən, ona belə deyilər: «Kiçik günahlarını ona təqdim edin, böyük günahlarını da ondan uzaqlaşdırın». Sonra belə deyir: «Filan gün bu günahları etmişdin». O da hamısın qəbul edər, amma böyük günahlarından qorxar. Bunun üzərinə belə deyirlər: «Etdiyi hər günah müqabilində, bir yaxşılıq verin». O deyər: «Mənim bəzi günahlarım var idi, lakin onları burada görmürəm». Əbuzər deyir: «Bun söylərkən Rəsulallahın, azı düşləri görüləcək şəkildə güldüyünü gördüm».

«Əl-Əmali»də İmam Sadiqin (ə) belə dediyi rəvayət edilir: «Qiyamət günü uca Allahən rəhməti o qədər geniş olar ki, İblis belə rəhmətə nail olma ümidinə qapılar».[1]

Söylədiyimiz son üç rəvayət mütləq səhihdir. Həm Əhli-beyt və həm də əhli-sünnət mənbələrində Peyğəmbərimizin (s) qiyamət günü şəfaət edəcəyini ortaya qoyan hədislər, təvatür mərhələsinə yetişmişdir. Əslində, bu hədislər hamısı birlikdə eyni anlama işarə edirlər: İman əhli günahkarlar şəfaətdən faydalanacaqlar. Bu faydalanma ya odda yanmaqdan qurtulmaq, ya da odda yandığı halda xilas olmaqla gercəkləşəcəkdir. Burada əldə etdiyimiz nəticəyə görə, iman əhli olan günahkarlar sonsuz olaraq odda yanmayacaqlar. Bildiyin kimi, Qurani-Kərimdə də bundan çox açıqlama verilmir.

---

[1] «Əl-Əmali» səh. 171, bab 37, hədis 2.

## FƏLSƏFİ BAXIMINDAN ŞƏFAƏT

Əqli dəlillər Şeyx İbn Sinanın dediyi kimi, naticə əldə etmək üçün lazımlı olan mərhələyə yetişmədiyindən, axirətlə əlaqəli olaraq Kitab və sünnətdə mövcud olan incəlikləri anlamaq nöqtəsində yetərsizdirlər; amma insan ruhunun bədənindən ayrılmasından sonra haqlarında dəlil irəli sürülən səadət və bədbəxtlik yollarında yetişəcəyi əqli və misali mükəmməlikləri ortaya qoya bilərlər.

Çünki hər şeydən əvvəl insanın etdiyi hər iş, onun üçün mənəvi bir mühit, xoşbəxtlik və ya bədbəxtliklə əlaqəli bir hal meydana gətirir. Xoşbəxtlik deyərkən, bir insan özü üçün yaxşı olan şeyləri, bədbəxtlik dedikdə isə, bunun əksini nəzərdə tutur. Bu hallar yavaş-yavaş təkrarlanaraq, köklü şəkildə özünəməxsus qazanırlar. Daha sonra ruh üçün xoşbəxt və ya bədbəxt bir şəkil alır. Bu da ruhu təcəssüm etdirən şəkil və surətlərin təməlini təşkil edir. Əgər ruhun alacağı surət xoş xüsusiyyətlidirsə, bunu əks etdirən varlıq xislətli və yeni surəti və bu yeni surəti qəbul edəcək maddə halında olan ruh ilə həmahənglik içində olur. Əgər insanın ruhunun fitri xüsusiyyətli bədbəxtlikdirsə, əks olunan xüsusiyyəti yoxluq olur. Təhlil olunan nəticəsi pisliyə qayıdan bir mahiyyət tərənnüm etdirir.

Xoşbəxt ruh, insan olması səbəbindən əsərlərindən zövq alır. Feilən xoşbəxt insan olması etibariylə də əsərlərindən ləzzət alır. Bədbəxt ruhun əsərləri, əməlləri ruha şəkil verən ünsürlər olmaları baxımından ruhla həmahəng olsalar belə, insana insan olması etibariylə iztirab verirlər. Bu hal, xoşbəxtlik və bədbəxlik nöqtəsində kamilləşən ruhlar üçün mümkündür. İnsanlıq və saleh əməl etibariylə xoşbəxt insan ilə

insanlıq, pis əməl etibariylən isə bədbəxt insanı nəzərdə tuturdum.

Xoşbəxtlik və bədbəxlik baxımından naqis olan ruha gəlincə, bu vəziyyətdə insan insanlıq olaraq xoşbəxt, amma əməl olaraq bədbəxt olur. Belə ki, insanın insanlığı özündə haqq və dəyişməz bir inanc sisteminə inanma xoşbəxtliyinə qovuşur. Ruhunda seçim səlahiyyətinə sahib olduğu dünya həyatında etdiyi günah və pisliklərdən qaynaqlanan alçaqlıq və bədbəxt ünsürlər olarsa, bunlar, onun insanlığına uyğun olmadığı üçün davamlı ola bilməzlər. Əqli dəlillər məcburiyyətin davamlı olmayacağını ortaya qoymuşdur. Bu səbəbdən bu cür mənfi ünsürlərə ruh, bu ünsürlərdən ya bərzəx aləmində, ya da qiyamət günü təmizlənir. Eyni vəziyyət xoşbəxtlik ünsürlərinə bulaşmış bəxdəxt ruh üçün də labüddür. Bədbəxt ruh baxımından bu xoşbəxtlik ünsürləri ötəridirlər və yavaş-yavaş, bir müddətə ondan ayrılırlar.

Dünya həyatında xoşbəxtlik və ya bədbəxlik prosesi tamamlanmadan zəif və naqis bir şəkildə bədəndən ayrılan ruhların vəziyyəti, uca Allahın əmrinə qalmışdır. Sabah və əzabla cəzalandırmağa əlaqəli olan dəlillər bunu göstərir. Bu, əməl və nəticələrinin labüdlüyündən qaynaqlanan bir zəruriyyətdir. Çünki əsassız və təməlsiz olduqda, sonda həqiqi və varlığın əsaslı təməllərinə dönmələri lazım gəlir. Bu nöqtəni qənimət bil.

Qəti olaraq isbat edilmişdir ki, varlıq baxımından kamala yetişmək kamal, naqislik, şiddət və zəif dərəcələri sahəsində fərqlilik meydana gətirir. Buna, məxsus mücərrəd aydınlıqla əlaqəli olaraq «təşkik» deyilir. Buna görə, kamal mərtəbəsinin başlanğıcına və sonuna yaxınlıq və uzaqlıq baxımından ruhların dəyişik dərəcələri vardır. İrəlilədiyi müddət ərzində və ya başladığı nöqtəyə yenidən dönmə hərəkətində də, belədir.

Bu səbəbdən, bəzi ruhlar digərlərinə nisbətdə daha üstün dərəcədədirlər. Bu, faili səbəblər və feyz vasitələrin təməli fitri bir xüsusiyyətidir. Buna görə, peyğəmbərlərin (ə) ruhlar kimi tam və kamil ruhlar, məxsusluqla kamal dərəcəsinin ən üst dərəcəsinə yetişəni, zəif ruhların insanlıqları ilə uyğun olmayan alçaqlıq və bədbəxtlik xüsusiyyətlərini aradan aparmaqda vasitəçilk edərək, təsirli rol oynayırlar. Bax, günahkarlara xas şəfaət budur.

## SOSİOLOJİ BAXIMINDAN ŞƏFAƏT

Sosioloji qanunlara görə bir cəmiyyət, ancaq aralarında qəbul edilmiş bir ədalətli qanun sistemi vasitəsi ilə həyatda varlıqlarını qoruyub yaşaya bilərlər. Bu sistem cəmiyyətin vəziyyətini, şəraitini nəzərə alaraq, onların fitrəti üzərində tərtib olunmalıdır. Fərdlərin əməli fəaliyyətləri də bir mövzuda olmalıdır. Ayrıca, bu qanun sistemi mövcud imkanlar daxilində cəmiyyəti təşkil edən fərdlərin xarakterləri və cəmiyyətin meydana gətirdiyi xüsusiyyətlərdən qaynaqlanmalıdır. Cəmiyyəti təşkil edən təbəqələrdən hər biri bu sistem daxilində öz vəziyyətini, şəraitini əks etdirməklə, cəmiyyətin statusuna uyğun olaraq bu sistemin rəhbərliyi altında yaşamalıdırlar. Beləcə, bu cəmiyyət son dərəcə əlaqəli və həssas bir yolda olur.

Bütün ünsürlərin qarışması və fərqli ünsürlərin müsbət təsirlənmələri nəticəsinda sosial ədalət həqiqiləşir. Cəmiyyətin maddi tərəqqisi üçün ehtiyac duyulan maddi mənfəətlərin əldə olunması isə, cəmiyyətdə zəruri olan mənəvi dəyərlərə - doğru danışmaq, əhdə vəfa və xeyirxahlıq kimi - gözəl və üstün əxlaqa söykənir.

Tərtib olunmuş qanun və hökmlərin etibarlı olması üçün cəza sistemi ilə əlaqədar başqa qanunlar tərtib etdikdə, qanun

və hökmlərin tarazlığını saxlamaq lazım gəlir. Cəmiyyətin bəzi fərdlərinin digərlərinin hüquqlarını pozmaması üçün bu çox zəruri bir məsələdir.

Bu səbəbdən, hökumət *(hansı qurluşu olursa olsun)* cəzanın tətbiq olunması gücü və təsirinə sahib olduğu müddətdə, cəmiyyətin yaşayış tərzi tənəzzülə uğramaz, hədələdiyi nəticəyə doğru gedən yoldan çıxmaz. Əks təqdirdə, hökumət zəiflədiyi zaman, cəmiyyətə qarşı hegemonluq edər. Bununla da, cəmiyyət inkişafdan qalar.

Buna görə də, cəmiyyət nizamlanması üçün lazım olan təlimlərdən biri, cəmiyyətə cəza sisteminin təlqinini və fərdləri bu sistemə yönəldərək, onlara qanuna riayət etmək inancının aşılanmasıdır. Bunun müqabilində isə, «rüşvət» və «yalan» məhfumları beyinlərdən silinməlidir. Çünki rüşvət və yalan, cəmiyyəti dəhşətli fəlakətlərə sürükləyir, hər cür hiylələr vasitəsilə cəzadan xilas olmaları üçün şərait yaradır.

Bu səbəbdən, xristianlıq dininin yalnış inancı – Həzrət İsanın (ə) bütün insanların günahlarının kəffarəsi olaraq çarmıxa çəkildiyi, bu dində böyük bir təhrifə səbəb oldu. Xristianlar bu yanlış inanca arxalanaraq, qiyamət günü cəzalandırılmaqdan xilas olacaqlarına inanırlar. Bu halda, din insanlıq üçün bir fəlakət gətirir. Mədəniyyəti aradan apararaq, ibtidai insanların dövründə olduğu kimi insanı vəhşiliyə, barbarlığa, qan tökməyə yönəldir, insanı inkişafdan saxlayır. Bu inanc xristianlıq dininin əsas xüsusiyyətlərindəndir. Statistiklər ən çox yalan söyləyən, başqalarının hüququnu tapdalayan və ədalətsizlik edənlərin xristianlıq dininin mənsubları olduğunu bildirirlər.

Bunun səbəbi, onların dini inaclarının özündən qaynaqlanan mövcud anlayışı, qiyamət günü şəfaət nəticəsində etdikləri cinayyətlərin müqabilində cəzadan xilas olmaqlarına

inanmalarıdır. Məhz bu səbəbdən də, başqalarına qarşı etdikləri haqsızlığa əhəmiyyət verməzlər. Amma başqalarından fərqli olaraq, onlarda fitri qərizələrin təsiri qaldığı üçün yaradılış haqqında olan hissləri və bu kimi inaclardan formalaşan xüsusiyyətləriylə insanlığa zidd olan iyrənc işlərə hökm edirlər.

Xristianların bu azğın anlayışlarına görə, bəzi tədqiqatçılar Quranda və sünnətdə sözügedən rəvayətlərdə gerçəkləşəcəyi vurğulanan şəfaətlə əlaqədar olan rəvayətlərin izahını, öz inacları ilə əlaqələndirərək göstərmişlər. Lakin İslamda onların açıqlamağa çalışdıqları kimi bir şəfaət anlayışı mövcud deyildir! İslamdakı şəfaət anlayışı, onların iddia etdikləri kimi bir təsirə sahib deyildir. Bu səbəbdən, tədqiqatçılar dini elmləri mükəmməl araşdırmalı və İslam insan cəmiyyətinə tətbiq etdiyi prinsiplərin bütün incəliklərinə baxmalıdırlar. Sağlam bir cəmiyyət və yüksək bir mədəniyyətin olması üçün İslamın zəruri bildiyi üsul və qanunların tətbiq edilməsi üzərində müzakirə etməlidirlər. O zaman vəd edilən şəfaətin nə olduğunu, İslamın gətirdiyi təlimlərin necə yüksək bir məqama sahib olduğunu öyrənərlər!

Əvvəla bunu bilərlər ki, Qurani-Kərimdə bəyan edilən şəfaətin özü bir həqiqətdir: möminlər qiyamət günü sonsuz olaraq odda qalmazlar. Ancaq Allahın hökmlərini sevinclə qəbul edən bir imana sahib və haqq bir dinə mənsub olaraq Rəbblərinin hüzuruna çıxmaları şərtdir. Bu, Qurani-Kərimin təqdim etdiyi şərtli bir vəddir. Ardınca Quran imanın, davamlı olaraq edilən, xüsusən də böyük günahlar və bu günahların adət halına gətirilməsi kimi böyük bir təhlükəylə qarşı-qarşıya olduğunu vurğulamaqdır. Qısa desək, mömin təhlükəli bir uçrumunun kənarındadır. Qurtuluş ümidi ilə yox olmaq qorxusu bundan qaynaqlanır. Möminin ruhu ümid və qorxu arasında bir yoldur. Qurtuluşu arzulayıb, yox olmadan

qorxaraq Rəbbinə itaət edər. Bütün həyatı boyu tarazlığı saxlayaraq, orta bir yol tutar. Nə tam olaraq ümidsizliyə nə də yanılaraq, arxayınlaşmaq duyğusuna qapılar.

İkincisi, islam dini insan cəmiyyəti üçün maddi və mənəvi sahələrə aid qanunlar qoymuşdur. Bu qanunlar fərdlərin və cəmiyyətin hər cür hərəkət və davranışını əhatə edir. Sonra qoyduğu hər qanun maddəsinə uyğun olaraq, cəzalandırmağı zəruri etmişdir. Həd,[1] təzir[2] və diyyə,[3] ictimai imtiyazlardan məhrum etmək, danlamaq və tənbeh etməyə qədər bir qrup cəzalar quymuşdur. Sonra bu sistemin həyata tətbiq olunması məqsədi ilə ulul-əmr (əmr sahibləri) idarəçiliyinin qurulmasını zəruri hesab etmişdir. Yaxşılığa əmr etmək və pislikdən çəkindirmək hökmünün üsuluna əsaslanaraq, tam bir nəzarətin qurulması zəruri etmişdir. Sonra bunu dini dəvət ruhuyla can vermişdir. Bu dəvətin mahiyyəti, axirətdə həqiqiləşəcək cəza ilə qorxutma və savabla müjdələmədir. Bu isə, insanın qəlbindəki iman ruhunu yüksəldir və dini təlimin təməlini, məbdə və məada olan etiqadın əsasını qoyur. İslam, beləcə, təlim sistemini, dünya və axirət həyatına əlaqəli prinsiplərin fərdlərə aşılanması əsası üzərində qurur. İslamən prinsiplərinin tətbiqi anlayışı da budur.

Həzrət Peyğəmbərimiz (s) bu qanunları gətirmiş və onun yaşadığı dövr və ondan sonrakı dövrlərdə praktiki olaraq bu qanunların tətbiq olunması özünü doğrultmuşdur. Nəhayət, Əməvi səltənəti zamanında hakimlər bu qanunlara məhəl qoymamış, zorakılıqları nəticəsində hökmləri tanınmaz hala

---

[1] Hakimin tərəfindən təyin olunan, «həd»in müəyyən olunmuş miqdarından az ölçüdə olan cəza hökmü.

[2] Hakimin tərəfindən təyin olunan, «həd»in müəyyən olunmuş miqdarından az ölçüdə olan cəza hökmü.

[3] Bədənə yetirilən xəsarətin müqabilində ödənilən məbləğ.

gətirmişlər. Əməvilər bununla kifayətlənməyərək, şəriətin zəruri bildiyi hüdudları aradan aparıb, dini idarəetməni və siyasəti əhəmiyyətsiz etmişlər. Bu azğınlığın izi günümüzə qədər davam etməkdədir. Bunun nəticəsi olaraq, qərb dövlətləri, qərb mədəniyyəti İslam aləminə qarşı duraraq, aşkar bir üstünlük əldə etdi. Müsəlmanlar arasında din adına, sadəcə bir yemək qabının dibindəki qırıntılar kimi kiçik bir şeylər qaldı.

Müsəlmanların dini siyasətinin zəifliyi və geriliyi, onların üstün xüsusiyyətlərinin aradan getməsinə, əxlaq və davranış qaydalarının çökməsinə, şəhvani arzu əyləncələrin əsiri olaraq, çirkin və iyrənc adətlərə aludə olmaqlarına yol açdı. Bunun nəticəsində, dinin zəruri bildiyi qanunlara riayət etməməyə cürət etdilər, haramları tanımaz hala gəldilər. Hər hansı bir dinə mənsub olmayanların belə çəkindiyi iyrənc işlər etdilər. Dini təlimlər, dinə qarşı çıxan bir insanın belə ağlına gəlməyəcək pozğunluqlara bulaşdırıldı. Buna baxmayaraq, dinin prinsiplərinin tək və dəyişməz məqsədi, insanın dünya və axirət xoşbəxtliyidir. Heç şübhəsiz, yardım Allahdandır.

# MÜNDƏRİCAT

Əllamə Təbatəbainin həyatı........................................................3
Əllamənin soy şəcərəsi...............................................................6
Quranda şəfaət.............................................................................8
Şəfaət nədir?...............................................................................17
Şəfaət qarşı irəli sürülən iradların cavablandırılması..................27
Şəfaət edilən və edən şəxslər......................................................43
Kimlər şəfaət edəcək.................................................................50
Şəfaətlə əlaqəli iki xüsusi...........................................................56
Şəfaət nə zaman fayda verir?.....................................................56
Hədislər baxımından şəfaət........................................................59
Fəlsəfi baxımından şəfaət...........................................................78
Sosioloji baxımından şəfaət.......................................................80